**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX-XXI ƏSRLƏRİN QOVŞAĞINDA AZƏRBAYCAN MUSİQİSİNDƏ YENİ FOLKLOR DALĞASI (CAVANŞİR QULİYEVİN ƏSƏRLƏRİNİN ƏSASINDA)

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Gülnarə Rafiq qızı Manafova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Lalə Şirməmməd qızı Hüseynova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, dosent
**Kəmalə Veyis qızı Ələsgərli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Ellada Əlihüseyn qızı Hüseynova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Pikə Mirzəağa qızı Axundova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
**Aytac Elxan qızı Rəhimova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cavanşir Quliyev Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsidir. Onun yaradıcılığı XX əsrin 70-ci illərindən bəri diqqətəlayiq əsərlərlə bu günədək davam edərək nəinki bəstəkarın şəxsi taleyində, eləcə də ölkə miqyasında baş verən hadisələrin əks edilməsi baxımından əlamətdardır. XX əsrin musiqi yeniliklərini əsərlərində xalq musiqisi elementləri ilə üzvi şəkildə vəhdət halına gətirməyə nail olmuş bəstəkarın yaradıcılığını küll halında nəzərdən keçirmək bizə onun milli musiqi mənzərəsində mövqeyini aydınlaşdırır.

Neofolklorizmin cərəyanının dünyada gedən proseslərin, eləcə də Azərbaycan musiqisində baş verən yeniliklərin fonunda müşahidəsi müasir musiqi landşaftında milli musiqimizin mövqeyini dəqiqləşdirmək imkanı yaradır ki, bu da dissertasiya mövzusunun aktuallığını təmin edir. Azərbaycan musiqisində yaradıcılığı 70-ci illərdə formalaşmış C.Quliyev neofolklorizm, yeni folklor dalğası cərəyanının təzahür formalarını açıq-aşkar nümayiş edən bəstəkar kimi həmçinin çağdaş professional musiqimizin spesifik özəlliklərini əks etdirir.

C.Quliyevin Qərb və Şərq dünyalarının qovşağında təşəkkül tapmış dünyagörüşü və bədii-estetik baxışları dövrün estetikası və ümumi təmayüllərini əks etdirdiyi qədər həmçinin folklorun özünəməxsus cəhətlərini nümayiş etməyə cəlb edilə bilər. Xalq musiqisinə maraq, onu peşəkarcasına tədqiq etmək bacarığı, folkloru mühitindən qoparmamaq şərtilə bütün özəl xüsusiyyətlərini saxlamaqla yanaşı müasir zamanın tələblərinə uyğunlaşdırmaq istəyi C.Quliyevin bəstəkar simasının vacib xüsusiyyətidir. Vətən, xalq, azadlıq, türkçülük-turançılıq ideyası və bunların musiqidə əks etdirilməsi yollarının tədqiqi milli musiqişünaslıq qarşısında duran aktual məsələlərdən biridir.

C.Quliyevin yaradıcılığı dövrün simasını əks etməyə çalışan araşdırmalarda vaxtaşırı işıqlandırılır. Hələ gənc ikən C.Quliyev Azərbaycan bəstəkarlarının perspektivli üzvü kimi artıq diqqət mərkəzində idi. N.Qasımova elmi-tədqiqat oçerklərində [1] gənc bəstəkarların sırasında C.Quliyevin özünəməxsus yerini qeyd edirdi.

---

[1] Касимова, Н.К. На меридианах творчества. – Баку: Гянджлик, – 1984, – 128 с.

XX əsr Azərbaycan musiqisində çağdaş təmayüllərdən bəhs edərkən F.Əliyeva bəstəkarın yaradıcılığını müəyyən qədər işıqlandırmışdır[2]. Azərbaycan musiqisini muğamdan operaya qədər izləyən A.Hüseynova tədqiqatında[3] bəstəkara yer ayırmış və müasir musiqi rakursunda onun neofolklorçu mövqeyindən bəhs etmişdir. Bəstəkarı daim diqqət-nəzərində saxlayaraq yaradıcılığını izləyən tədqiqatçı alim Z.Dadaşzadə C.Quliyevin iki cildlik "Divan" toplusuna[4] ön sözündə dərc edilmiş əsərlərin təhlilini vermiş, bəstəkarla müsahibəsində müəyyən məqamları işıqlandırmışdır. Bundan əlavə Z.Dadaşzadə həmin materialları Azərbaycan musiqi tarixi çoxcildliyində[5] dərc etmiş və vaxtaşırı bəstəkarın yaradıcılığını elmi məqalələrində[6] işıqlandırır. C.Mahmudova Azərbaycan bəstəkarlarının yaradıcılığında mahnı janrını mətn və musiqi rakursundan təhlil edərkən C.Quliyevin məşhur mahnılarına diqqət vermişdir[7]. Bəstəkar X.Zeynalova Almaniyada müdafiə etdiyi dissertasiyasında[8] C.Quliyevin "Karvan" triosunun

---

[2] Əliyeva, F.Ş. Azərbaycan musiqisində üslub axtarışları. – Bakı: Elm və həyat, – 1996, – 120 s.; Əliyeva, F.Ş. XX əsr Azərbaycan musiqisi. Tarix və zamanla üz-üzə. – Bakı: Elm, – 2007. – 314 s.; Əliyeva, F.Ş. XX əsrin II yarısında Azərbaycan musiqisinin yeni inkişaf yolları. Dərs vəsaiti. – Bakı: Elm, – 2012. – 208 s.

[3] Huseynova, A.N. Music of Azerbaijan: From mugham to opera. / A.N. Huseynova,– USA: Indiana University Press. – 2016. – 360 p.

[4] Quliyev, C.R. Divan I. Əsərlər toplusu. [Partitura + CD]: (Ön söz Z.Axundova-Dadaşzadənin). – Bakı: Renessans-A Nəşriyyat evi, – 2018. – 376 s.; Quliyev, C.R. Divan II. Əsərlər toplusu. [Partitura + CD]: (Ön söz Z.Axundova-Dadaşzadənin. – Bakı: Renessans-A Nəşriyyat evi, – 2018. – 280 s.

[5] Dadaşzadə, Z.A. Cavanşir Quliyev /Azərbaycan musiqi tarixi. 5 cilddə, V c. XVII fəsil. – Bakı: Elm, – 2020. – s.447-480.

[6] Dadaşzadə, Z.A. Bura Vətəndi. // Xalq, 1991, 8 noyabr.; Dadaşzadə, Z.A. Bu dünyanın insanları bizi yada salacaq /C.Quliyev haqqında. // Qobustan, №3, – 1998. – s. 59-64.; Dadaşzadə, Z.A. Cavanşir Quliyevin total musiqi axtarışları // Musiqi dünyası, – 2001, 1-2(7), – s.87-91.

[7] Mahmudova, C.E. Azərbaycan bəstəkar mahnılarında poeziya ilə musiqi. (Monoqrafiya) Elmi red. R.Zöhrabov. – Bakı: Mars Print NPF, – 2009, – 209 s.; Mahmudova, C.E. Cavanşir Quliyevin mahnılarında poetik mətnlə musiqinin qarşılıqlı əlaqələri // Musiqi dünyası, № 3-4 (21) – 2004 – s.81-87.

[8] Zeynalova, K. Untersuchungen zur aserbaidschanischen Musikkultur im 20. Jahrhundert: Die aserbaidschanische Musikkultur im 20. Jahrhundert und ihre Rezeption westlicher Musik (= Reihe 536. Europäische Hochschulschriften Musikwissenschaft - Band 272). Frankfurt am Main, Peter Lang Gmbh, – 2013. – s.284-302

təhlilinə yer ayırmışdır. İfaçılıq baxımından fortepiano əsərlərini T.Seyidov[9], pianoçu S.Mirzəyev[10], saz və violin üçün sonatanı isə violin çalan L.Hüseynova metodiki dərs vəsaitində[11] müəyyən qədər təhlil etmişlər. A.Məmmədovanın "60-80-ci illər Azərbaycan simfonik musiqisində orkestrləşmə" mövzusunda dissertasiyasında[12] C.Quliyevin Zurna və simfonik orkestr üçün Uvertürası təhlil edilib. Bəstəkarın erkən dövr əsərləri G.İsmayılovanın diplom işində[13] araşdırılıb. S.Qasımova "Azərbaycan estrada mahnısının bəzi üslub xüsusiyyətləri" diplom işində bəstəkarın bioqrafiyasına yer ayırmış və bir neçə daha çox tanınan mahnılarının təhlilini vermişdir[14]. Bununla belə artıq 75 illik yubiley ilinə qədəm qoymuş bəstəkarın yaradıcılığını tam əhatə edən monoqrafiya hələ ki, yoxdur.

**Tədqiqatın obyekti və predmeti.** Təqdim olunmuş tədqiqatın obyekti C.Quliyevin yaradıcılığıdır. Dissertasiyada bəstəkarın demək olar, bütün əsərləri təhlil edilərək sxemləşdirilmiş və müəllif məqsədinə uyğun qaydada sistemləşdirilmişdir.

Tədqiqatın predmeti isə onun yaradıcılığında neofolklor təmayüllərin aşkar olunmasıdır. C.Quliyevin yaradıcılığı avanqard musiqi təhlil üsulları ilə xalq musiqi janrlarına nəzərən müqayisəli

---

[9] Seyidov, T.M. Azərbaycan fortepiano musiqisində janrların inkişafı. – Bakı: Şur, – 1992. – 302 s.; Seyidov, T.M. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı. – Bakı: Təhsil, – 2016. – 336 s.; Сеидов, Т.А. Развитие жанров азербайджанской фортепианной музыки. – Баку: Шур, – 1992. – 308 s.; Сеидов, Т.А. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество. – Баку: Азернешр, – 2006. – 272 с.

[10] Mirzəyev, S.Ə. Azərbaycan musiqisi kontekstində müasir fortepiano notasiya simvolları. – Bakı: Qanun, – 2019. – 184 s.

[11] Hüseynova, L.V. Cavanşir Quliyevin skripka və saz üçün Sonatası. Ali və orta ixtisas musiqi məktəblərinin müəllim və tələbələri üçün nəzərdə tutulmuş metodiki tövsiyələr. – Bakı: RSXM, – 2009. – 16 s.

[12] Мамедова, А.Р. Оркестровое письмо азербайджанских композиторов в симфонической музыке 60-80-х годов / Автореферат диссертации на соискание ученой степени доктора философии. – Баку: – 2010. – 30 с.

[13] İsmayılova, G.R. C.Quliyevin yaradıcılığının bəzi üslub xüsusiyyətləri. Diplom işi. Azərbaycan Dövlət Konservatoriyası. – Bakı: – 1993, – 135 s.

[14] Касумова, С.А. Некоторые особенности Азербайджанской эстрадной песни. Дипломная работа. БМА им. Уз.Гаджибейли. – Баку: – 1996. – 82 с.

şəkildə araşdırılaraq bəstəkarın türkçülük ideyalarına dayaqlanan konseptsferasını aşkar etmək məqsədinə xidmət edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** C.Quliyevin yaradıcılığını geniş tarixi fonda və dünya musiqisi axarında təqdim etmək, eləcə də bəstəkarın folklora dayaqlanan özünəməxsus üslub xüsusiyyətlərini aşkar etmək məqsədi tədqiqat qarşısında aşağıdakı vəzifələr formalaşdırmışdır:

1. XX-XXI əsrlərin musiqisində bas verən cərəyanların fonunda folklor və bəstəkar probleminin həlli yollarını araşdırmaq;
2. Neofolklor, "yeni folklor dalğası" fenomenini ümumi folklorizm mənzərəsi fonunda təhlil etmək;
3. Azərbaycan neofolklorunun, o cümlədən C.Quliyevin sənət axtarışlarının müxtəsər xülasəsini vermək;
4. Xalq musiqisinin həm ənənəvi professional, həm də autentik janrlarının C.Quliyevin əsərlərində meydana çıxan özünəməxsus cəhətlərini ortaya çıxartmaq;
5. Bəstəkarın yaradıcılığında önəmli yer tutan türkçülük konseptsferasının spesifik cəhətlərini tədqiq etmək.

**Tədqiqat metodları.** Tədqiqatın paralel olaraq həmçinin xalq musiqisini araşdırmaq məqsədi və müasir musiqinin nailiyyətlərinin xalq musiqisinin inkişafına təhkim edilməsini ortaya çıxaran hədəfləri dissertasiyanın vahid metodologiya əsasında deyil, hər fəslin müxtəlif metodoloji üsulla təhlilini diktə edir. Çünki xalq musiqisini tədqiq etməyə yarayan müxtəlif yönlü metod və üsullar həm bəstəkarın, həm də xalq musiqisinin inkişafında diqqətəlayiq məqamları aşkar edə bilir. Bununla bağlı olaraq tədqiqatda tarixi analitik, empirik, sintaktik, semantik təhlil metodlarından istifadə edilmişdir.

Dissertasiyanın materialları qismində bəstəkarın dərc edilmiş not nümunələri və nəşr edilməmiş partituraları, eləcə də arxiv materialları tədqiqata cəlb edilmişdir. Araşdırmanın mövzusuna dair kulturoloji, fəlsəfi və sənətşünaslıq üzrə nəzəri elmi əsərlər tədqiqatın əsaslandığı mənbə bazasını təşkil edir.

Metodoloji baza olaraq bir sıra alimlərin çalışmaları Azərbaycan bəstəkarı və milli musiqinin müştərək tədqiqinə cəlb edilmişdir. C.Quliyev müasir musiqi baxımından tədqiq edilərkən

Y.Xolopov [15], V.Xolopova [16], A.Sokolov [17], Y.Dubines [18], S.Kohoutek [19],V.Tsenova [20], M.Vısotskaya [21], N.Arnonkur [22], A.Kuzmin[23], R.Reti[24], V.Rudnev[25], E.Denosov[26], Q.Dmitriyev[27],

---

[15] Холопов, Ю.Н. Симметричные лады в теоретических системах Яворского и Мессиана / «Музыка и современность». – М.: Музыка, – 1971. – с. 247-293; Холопов, Ю.Н. Микро и последствия // Музыкальное образование в контексте культуры. Науч. труды РАМ им. Гнесиных. – М: – 2000, – с. 27-38; Холопов, Ю.Н. Вклад Кейджа в музыкальное мышление XX века // Джон Кейдж. К 90- летию со дня рождения: Матер. науч. конф. Редколлегия: Ю.Н. Холопов, В.С.Ценова, М.В.Переверзева // Науч. тр. Москов. Гос. Консерватории им. П.И.Чайковского. Сб.46. – М.: – 2004. – с. 79-90; Холопов, Ю.Н. Лады Шостаковича. Структура и систематика // Идеи Холопова в XXI веке. Сб. статей. Редактор-составитель Т.С. Кюрегян. – М.: Музиздат, – 2008. – с. 290-307.

[16] Холопова, В.Н. Вопросы ритма в творчестве композиторов первой половины XX века / В.Н.Холопова. – М.: Музыка, – 1971. – 301 с.; Холопова, В.Н. Формы музыкальных произведений. Учебное пособие. 2-е изд., испр. / В.Н.Холопова. – СПб.: Лань, – 2001, – 496 с.; Холопова, В.Н. София Губайдулина / В.Н.Холопова. – М.: Композитор, – 2008. – 400 с.: ил., нот. ISBN 5-85285-472-7.; Холопова, В.Н. Российская академическая музыка последней трети XX — начала XXI веков (жанры и стили) / В.Н.Холопова. – М: – 2015. – 226 с.

[17] Соколов, А.С. Введение в музыкальную композицию XX века: учеб. пособие по курсу «Анализ музыкальных произведений» для студ. высш. учеб. Заведений / А.С.Соколов. – М.: Гуманитар. изд. центр ВЛАДОС, – 2004. – 231 с. ил.: ноты. ISBN 5-691-01313-0.; Соколов, А.С. Музыкальная хронология XX века / Теория современной композиции: учебное пособие. – М.: Музыка, – 2005. – с. 14-22.

[18] Дубинец, Е.А. Знаки звуков. О современной музыкальной нотации / Е.А.Дубинец. – Киев, Гамаюн, – 1999, – 314 с.

[19] Когоутек, Ц. Техника композиции в музыке XX века / Ц. Когоутек. – М.: Музыка, – 1976, – 358 с.

[20] Теория современной композиции. Учебное пособие. Ответсвенный редактор Ценова В.С. – М.: Музыка, – 2005, – 624 с. ISBN: 5-7140-0309-8

[21] Высоцкая, М.С. Между логикой и парадоксом: композитор Фарадж Караев. Монография / М.С. Высоцкая. - М.: Момент, - 2012, - 568 с. ISBN 978-5-9902821-1-7; Высоцкая, М.С., Григорьева Г.В. Музыка XX века: от авангарда к постмодерну: учебное пособие / М.С. Высоцкая, Г.В. Григорьева; МГК им. П.И. Чайковского. – М.: Московская консерватория, – 2011. – 440 с.

[22] Арнонкур, Н. Музыка языком звуков. Путь к новому пониманию музыки (Musik als Klangrede: Wege zu einem neuen Musikverständnis. Salzburg, 1982); рус. перевод: – Спб: – 2002. – 99 с.

[23] Кузьмин, А.Р. Нотация в музыке XX века: учеб.-метод. Пособие. Челяб. гос. акад. культуры и искусств. - Изд. 2. / А.Р.Кузьмин. – Челябинск, – 2010. – 100 с.

İ.Barsova[28], T.Çeredniçenko[29], M.Arkadyev[30], Ç.Pirs[31], F.Qarayev[32] kimi alimlərin təhlil üsulu, T.V.Adorno[33], A.Şönberq[34], O.Messian[35], A.Vebern[36], C.Keyc[37], A.Oneqqer[38], P.Hindemit[39], F.Pulenk[40],

---

[24] Рети, Р. Тональность в современной музыке / Р.Рети. – Л.: Музыка, – 1968. – 132 с.; Réti, R. Tonality, atonality, pantonality: A study of some trends in twentieth century music. – London, – 1958; 2-е издание под названием: Tonality in modern music. New York, 1962 / Тональность в современной музыке. Рус. перевод Г. Орлова. / – Л.: Музыка, – 1968. – 132 с.

[25] Руднев, В.П., Энциклопедический словарь культуры XX века. Ключевые понятия и тексты / В.П.Руднев. – М., Аграф, – 2009. – 543 с.

[26] Денисов, А.В. Музыка XX века: А.Казелла, Дж.Малипьеро, Л.Даллапиккола и др. (Композиторы. Очерки жизни и творчества) / А.В.Денисов. – СПб.: Композитор, – 2006, – 112 с.; Денисов, Э.В. Ударные инструменты в современном оркестре / Э.В.Денисов. – М.: Советский композитор, – 1982. – 258 с.; Денисов, Э.В. Современная музыка и проблемы эволюции композиторской техники / Э.В.Денисов. – М.: Советский композитор, – 1986. – 207 с.

[27] Дмитриев, Г.П. Ударные инструменты: трактовка и современное состояние. 2-е изд. / Г.П.Дмитриев. – М.: Советский композитор, – 1991. – 145 с.

[28] Барсова, И.А. Контуры столетия. Из истории русской музыки XX века / И.А.Барсова. — СПб.: Композитор, – 2007. – 240 с., нот, ил.

[29] Чередниченко, Т.В. Генезис интонации: новый подход (рец. на кн. Э.Е.Алексеева "Раннефольклорное интонирование") // Сов. музыка, 3/1987, – с.96-99; Чередниченко, Т.В. Музыкальный запас – 70-е Проблемы. Портреты. Случаи / Т.В.Чередниченко. – М.: Новое литературное обозрение, – 2002. – 592 с.

[30] Аркадьев, М.А. Временные структуры новоевропейской музыки. / М.А. Аркадьев. – Москва: Библос, – 1993. – 170 с.

[31] Пирс, Ч.С. Что такое знак? // Вестн. Томского гос. ун-та. Сер. Философия. Социология. Политология. – 2009. – № 3 (7). – с. 88-95.

[32] Фарадж Караев. Лекция об инструментальном театре прочитана в московской консерватории [Electronic resource] / URL:http://www.karaev.net/t_lection_instrumtheater_r.html

[33] Адорно, Т.Л. Философия новой музыки. Пер. с нем. / Перевод Б. Скуратова. Вст. ст./ Т.Л.Адорно, К. Чухрукидзе. – М.: Логос, – 2001. – 352 с.

[34] Шенберг, А.Ф.В. Стиль и мысль. Статьи и материалы. Составление, перевод и комментарии Н. Власовой и О. Лосевой / А.Ф.В. Шенберг, – Москва: Композитор, – 2006. – 528 с.

[35] Мессиан, О. Техника моего музыкального языка / Пер. с франц. и коммент. М. Чебуркиной. Науч. редакция Ю. Холопова. – Москва: Греко-латинский кабинет Ю. А. Шичалина, – 1995. – 128 с.

[36] Веберн, А.К. Лекции о музыке. Избранные письма / Пер. с нем. В.Г. Шнитке. – Москва: Музыка, – 1975. – 143 с.

B.Bartok[41], Y.Ksenakis[42], A.Şnitke[43], S.Qubaydulina[44], V.Yekimovski[45] kimi müasir dövr musiqisinin nəzəri və tədqiqi əsaslarını yaratmış bəstəkarların yanaşma tərzi tətbiq edilmişdir. Folklorizm cərəyanının tədqiqində İ.Zemtsovski[46], Q.Qolovinski[47],

---

[37] Кейдж Дж. Тишина. Лекции и статьи. / Перевод с англ. Библиотека Московского Концептуализма Германа Титова, – Вологда, – 2012, – 385 с.

[38] Онеггер, А. О музыкальном искусстве / Пер. с фр., коммент. В. Н. Александровой, В. И. Быкова. – Л.: Музыка, 1979. – 264 с.

[39] Пауль Хиндемит: статьи и материалы / И. Прудникова, сост. – М.: Советский композитор, – 1979, – 422 с.; Hindemith, Paul. 1952. A Composer's World: Horizons and Limitations. Cambridge: Harvard University Press.

[40] Пуленк, Ф. Я и мои друзья / – Москва: Музыка, – 1977 г, – 158 с.

[41] Барток, Б.В.Я. Зачем и как собирать народную музыку / Пер. с венгер., вступ. статья и примеч. С.И. Вайса / Б.В.Я. Барток. – Москва: Музгиз, – 1959. – 48 с.; Барток, Б.В.Я. О влиянии крестьянской музыки на музыку нашего времени / Бела Барток: сб. статей / Сост. Е.И. Чигарева. – Москва: Музыка, – 1977. – с. 245–249.

[42] Ксенакис, Я. Беседы // Homo musicus: Альманах музыкальной психологии. – М.: – 1994. – с. 137–155.

[43] А.Г. Шнитке. Беседы, выступления, статьи / А. В. Ивашкин. Составление, беседы, интервью. вступит, статья, каталог сочинений, список статей и интервью, иллюстрации, – Москва: РИК . Культура. – 1994 г. – 322 с.

[44] Беседа с Софией Губайдулиной. О музыке и о себе «В знак дружбы». Беседу вела О. Бугрова // Музыкальная академия, – 1994. № 3. – с. 1-7.; Губайдулина, С.А. «Дано» и «задано» // Муз. Академия. – 1994. № 3. – с. 1-7

[45] Екимовский, В.А. Джаваншир Кулиев // Музыка в СССР, 1985, июль-сентябрь; Екимовский В.А. Автомонография / В.А.Екимовский, – Москва:, Музиздат, – 2008. – 480 с.; Екимовский В.А. Оливье Мессиан. Жизнь и творчество / В.А. Екимовский, – М., Советский композитор, – 1987. – 304 с.

[46] Земцовский, И.И. Фольклор и композитор: теоретические этюды / И.И.Земцовский. – Л. – М.: Советский композитор, – 1978. – 176 с.; Земцовский, И.И. О современном фольклоре / Традиционный фольклор в современной художественной связи (фольклор и фольклоризм): сб. науч. тр. / ЛГИТМиК; сост. И.И. Земцовский. – Л.: ЛГИТМИК, – 1984. – с. 4–15.; Земцовский, И.И. Текст – Культура – Человек: Опыт синтетической парадигмы // Музыкальная академия. – 1992. № 4. – с.3-6; Земцовский, И.И. Три кита музыки устной традиции // Традиционная культура. Поиски. Интерпретации. Материалы. Сб. статей по материалам конференции памяти Л.М.Ивлевой. – СПб., – 2006. – с. 6.; Земцовский, И.И., Кунанбаева А.Б. Homo Lyricus, или лирическая песня в этномузыковедческой стратиграфии «фольклорной культуры» (На подступах к монографии) // Классический фольклор сегодня: материалы конференции, посвященной 90-летию со дня рождения Бориса Николаевича Путилова, – Санкт-

N.Jossan [48], V.Meduşevski [49], V.Propp [50], L.Xristiansen [51] və digərlərinin xristomatik elmi araşdırmalarına istinad edilmişdir. Milli musiqi və onun müxtəlif janrları ilə paralellər çəkərkən Azərbaycan musiqişünaslarının Ə.Eldarova [52], T.Məmmədov [53], K.Dadaşzadə [54], A.Quliyev [55], İ.İmamverdiyev [56], S.Fərhadova [57], R.Məmmədova [58],

---

Петербург, 14-17 сентября 2009 г. / Рос. акад. наук, Ин-т рус. лит.; – 2011. – с. 199-249.

[47] Головинский, Г.Л. Композитор и фольклор: Из опыта мастеров XIX-XX веков. Очерки. / Г.Л.Головинский. – М.: Музыка, – 1981. – 278 с.

[48] Жоссан Н. Проблема претворения русских фольклорных жанров в сочинениях кантатно-ораториального типа (на материале отечественной музыки 60–80-х годов): Автореф. дис. ... канд. искусствоведения. – Москва: – 1998. – 28 с.

[49] Медушевский, В.В. Интонационная форма музыки / В.В.Медушевский. – М., – 1993. – 262 с.; Медушевский, В.В Новое сакральное пространство или вечная юность традиции? Минимализм в его отношении к традиции // Новое сакральное пространство. Духовные традиции и современный культурный контекст: материалы науч. конф. Сб. 47. – М.: МГК им. П. И. Чайковского, –2004. – с. 101-110.

[50] Пропп, В.Я. Фольклор и действительность / В.Я.Пропп. Избр.ст. – М.: Наука, – 1976. – 328 с.; Пропп, В.Я. Исторические корни волшебной сказки / В.Я.Пропп. — Л.: Изд-во ЛГУ, – 1986. – 364 с.

[51] Христиансен, Л.Л. Из наблюдений над творчеством композиторов «новой фольклорной волны» // Проблемы музыкальной науки, Вып. 1. – 1972. – с. 198–218.

[52] Эльдарова, Э.М. Некоторые вопросы ашугского искусства / Искусство Азербайджана, т 1, – Б., 1949. – с. 102-121.; Эльдарова, Э.М. Искусство ашыгов Азербайджана / Э.М.Эльдарова. – Баку: Ишыг, – 1984. – 117 с.

[53] Мамедов, Т. А. Традиционные напевы азербайджанских ашыгов / Т.А.Мамедов. – Баку: Ишыг, – 1988. – 350 с.; Məmmədov, T.A. Azərbaycanın klassik aşıq havaları / T.A.Məmmədov. – Bakı: Əbilov və oğulları, – 2009. – 432 s.; Məmmədov, T.A. Azərbaycan aşıq yaradıcılığı. Ali musiqi məktəbləri üçün dərslik / T.A.Məmmədov. – Bakı: Apastrof, – 2011, – 648 s. illüstrasiyalarla + 2 CD

[54] Dadaşzadə, K.H. Musiqi qorqudşünaslığına dair bəzi mülahizələr, yaxud qorqudşünaslığın "ağ ləkəsi" haqqında // Musiqi dünyası, – 1/1999, – s.39-41; Дадашзаде, К.Г. Знаковая система дастана / К.Г.Дадашзаде. – Баку: Нурлан, – 2004, – 292 с.; Дадаш-заде, К.Г. Восхождение (Узеир Гаджибейли и ашыгское искусство: интертекстуальный диалог) / К.Г.Дадашзаде. – Баку: Издательский Дом Şərq-Qərb, – 2014. – 232 с. ISBN 978-9952-489-47-7

[55] Гулиев, А.Н. Принципы контрастности в музыкальной драматургии азербайджанского мугама. / А.Н. Гулиев. – Баку, Şərq-Qərb, – 2009. – 136 с.

[56] İmamverdiyev, İ.C. İran türklərində aşıq toy mərasimləri /İlqar İmamverdiyev; Red.: M.Süleyman; Ön söz: B.Qurbanov. – Bakı: Nurlan, – 2006. – 94 s.

S.Bağırova [59], İ.Köçərli [60], L.Hüseynova [61], F.Xalıqzadə [62], E.Babayev [63], S.Abdullayeva [64], M.Kərim [65], A.Nəcəfzadə [66],

---

[57] Fərhadova, S.M. Azərbaycan muğam-dəstgahının tarixi kökləri / S.M.Fərhadova. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, – 2018. – 200 s. ISBN: 978-9952-516-13-5

[58] Məmmədova, R.A. Musiqi türkologiyası / R.A.Məmmədova. – Bakı: Elm, – 2002. – 84 s.; Məmmədova, R.A. Musiqi türkologiyasının əsasları // Musiqi dünyası, – 2022, 1 (90) – s. 22-27.; Мамедова, Р.А. Азербайджанский мугам / Р.А.Мамедова. – Баку: Элм, – 2002, – 280 с.; Мамедова, Р.А. Об этноморфологическом анализе азербайджанской народной музыки. // Musiqi dünyası, 1 (58), – 2014. – s. 7056-7064.

[59] Багирова, С.Ю. Проблемы мугамного формообразования. /Автореф. … дисс. канд. искусствоведения/ – Ташкент: – 1984. – 19 с.; Багирова, С.Ю. Азербайджанский мугам. Статьи, исследования, доклады. I Том / С.Ю.Багирова. – Баку: – 2007. – 289 с.; Bağırova, S.Y. Azərbaycan muğamı. Məqalələr, məruzələr, tədqiqatlar. II cild / S.Y.Bağırova. – Bakı: Elm, – 2007, – 152 s.

[60] Köçərli İ.T. Erkən folklor intonasiya edilmənin tipoloji əlamətləri // “Konservatoriya” jurnalı, – 2010-3(9), – s.118-124; Köçərli, İ.T. Ozan-aşıq sənətində teatr ünsürləri // Mədəniyyət dünyası: elmi-nəzəri məcmuə, XX buraxılış. – Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, – 2010, – s.133–136; Köçərli İ.T. Aşıq sənəti: musiqili-poetik janrlar / İ.T.Köçərli. – Bakı: Apostrof, – 2010. – 218 s.; Köçərli İ.T. Aşıq sənəti: sinkretizm və sintez problemləri / İ.T.Köçərli – Bakı: Səda, – 2011. – 208 s.

[61] Hüseynova, L.Ş. Azərbaycan Bəstəkarlar İttifaqı: böyük yolun tarixi (1934-2009) / L.Ş.Hüseynova. – Bakı: Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, – 2010. – 445 s.; Hüseynova, L.Ş. Musiqi türkologiyasının tədqiqat istiqamətləri və problemlərinə dair // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: ADMİU, – 2017. – s.26-29.; Hüseynova, L.Ş. Məqam-muğam istilahlarının türkdilli xalqların musiqisində təzahür aspektləri // "Muğam aləmi" V Beynəlxalq elmi simpoziumun materialları, – Bakı, AMEA, 7-9 mart 2018. – s.209-216.

[62] Xalıqzadə, F.X. Üzeyir Hacıbəyli və folklor / F.X.Xalıqzadə. – Bakı, Şərq-Qərb Nəşriyyat Evi, – 2014, – 276 s.; Xalıqzadə, F.X. Musiqi türkologiyası: nailiyyətlər, perspektivlər // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: – 2016. – s. 39-42; Xalıqzadə, F.X. Azərbaycan musiqisinin türkoloji kontekstdə tədqiqi haqqında // “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri”, XVII Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 2018. – s.210-213.

[63] Babayev, E.Ə. Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri / E.Ə.Babayev. – Bakı: Elm, – 1998. – 146 s.; Babayev, E.Ə. Azərbaycan muğam dəstgahlarında ritmintonasiya problemləri / E.Ə. Babayev. – Bakı, Ergun, – 1996, – 128 s.

M.İsmayılov[67], R.Zöhrabov[68], C.Həsənova[69] və b. çalışmalarından istifadə edilmişdir. Arxaik folklorun bəstəkar yaradıcılığı ilə bərabər tədqiqi zamanı E.Alekseyevin[70], V.Martınovun[71] metodologiyası,

---

[64] Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat) / S.A. Abdullayeva. – Bakı: Adiloğlu, – 2002, – 454 s.; Abdullayeva, S.A. Azərbaycan çalğı alətləri dünyanı valeh edir / S.A. Abdullayeva. – Bakı: Nurlar, – 2016, – 288 s.; Абдуллаева, С.А. Народный музыкальный инструментарий Азербайджана (музыковедческо-органологическое исследование) / С.А.Абдуллаева. – Б.: Элм, – 2000, – 486 с. с илл.; Абдуллаева, С.А Древние азербайджанские музыкальные инструменты // İRS, № 2 (62), – 2013, – с.34-40

[65] Kərimov, M.T. Azərbaycan musiqi alətləri. (Azərbaycan, ingilis və rus dillərində) / M.T.Kərimov. – Bakı: Yeni nəsil, – 2002. – 175 s.; Kərimov, M.T. Azərbaycanın qədim musiqi alətləri // Musiqi dünyası, – 1999, N1, – s.37-38

[66] Nəcəfzadə, A.İ. Çalğı alətlərimiz / A.İ.Nəcəfzadə. – Bakı: Min bir mahnı MMC, – 2004, – 128 s.; Nəcəfzadə, A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. (Yenidən işlənmiş II nəşr) / A.İ.Nəcəfzadə. – Bakı: MBM, – 2004, – 224 s.; Nəcəfzadə, A.İ. Azərbaycan idiofonlu çalğı alətləri (Orqanoloji-tarixi tədqiqat) / A.İ.Nəcəfzadə. – Bakı: MBM, – 2010, – 280 s.; Nəcəfzadə, A.İ. Etnoorqanologiya. Musiqi təmayüllü ali məktəblər üçün dərslik / A.İ.Nəcəfzadə. – Bakı: Ecoprint, – 2016. – 304 s.; Nəcəfzadə, A.İ. "Kitabi-Dədə Qorqud" dastanında çalğı alətləri (tədqiqat və lüğət) / A.İ.Nəcəfzadə. – Bakı, Elm və təhsil, – 2017. – 264 s.; Nəcəfzadə, A.İ. Zurna türkçe konuşan halkların ortak müzik aletidir // ISME – 2018 Beynəlxalq musiqi təhsili cəmiyyəti 33-cü Dünya konfransı Türk dünyası oturumu, – Bakı: 15-20 iyul, – 2018, – s. 336-346.

[67] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları / M.C.İsmayılov. – Bakı, Mütərcim, – 2023, – 137 s.; İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi- metodik oçerklər / M.C.İsmayılov. – Bakı: Elm, – 1991, – 120 s.

[68] Zöhrabov, R.F. Bəstəkarlarımızın portreti / R.F.Zöhrabov. – Bakı: Şur, – 1999, – 124 s.

[69] Həsənova, C.İ. Azərbaycan musiqisinin məqamları / C.İ.Həsənova. – Bakı: Elm və Təhsil, – 2012. – 323 s.

[70] Алексеев, Э.Е. Проблемы формирования лада (на материале якутской народной песни) / Э.Е.Алексеев. – М.: Музыка, – 1976. – 288 с.; Алексеев, Э.Е. Раннефольклорное интонирование. Звуковысотный аспект / Э.Е.Алексеев. –М.: Советский композитор, – 1986, – 240 с.; Алексеев, Э.Е. Фольклор в контексте современной культуры: рассуждения о судьбах народной песни / Э.Е.Алексеев. – М.: Сов. композитор, – 1988. – 237 с.; Алексеев, Э.Е. Фольклористическая нотация: этапы развития, состояние, перспективы // Музыкальная фольклористика: проблемы истории и методологии / Ред.-сост. Э.Е. Алексеев, Л.И. Левин. – М.: – 1990. м с. 147-161.

[71] Мартынов, В.И. Конец времени композиторов / Послесл. Т.Чередниченко. – М.: Русский путь, – 2002. – 296 с. ISBN:5–85887–143–7

yaddaş fenomenini izah edərkən V.Vernadskinin [72] noosfera nəzəriyyəsi, xalq mahnı və rəqsləri ilə paralellər çəkən zaman L.Mazel, M.Tsukkermanın [73] forma təhlil üsulu, intonasiya təhlili zamanı isə B.Asafyev[74], Q.Konsonun[75] intonasiya nəzəriyyəsi tətbiq edilmişdir. Şeir vəznlərinin musiqiyə təsiri tədqiq edilərkən Ş.Ədillinin [76] asanlaşdırılmış əruz qəliblərindən, türkçülük intonasiyasını izlədikdə isə üçpilləli qədim türk dünya modelinin musiqiyə tətbiqi metodundan (S.Ş.Ayazbekova [77], S.A.Ayazbek, S.İ.Uteqaliyeva [78] və b.) istifadə edilmişdir. Bundan əlavə müəllif

---

72 Вернадский, В.И. Научная мысль как планетное явление / В.И.Вернадский. – М.: Наука, – 1991. – 240 с.; Вернадский, В.И. Биосфера и ноосфера / В.И.Вернадский. – М.: Наука, – 1989. – 261 с.

73 Мазель, Л.А., Цуккерман, В.А. Анализ музыкальных произведений элементы музыки и методика анализа малых форм / Л.А.Мазель, В.А.Цуккерман, – Москва, Музыка, – 1967, – 752 с.

74 Асафьев, Б.В. Музыкальная форма как процесс: Книга вторая. Интонация / Б.В. Асафьев. Избранные труды. Т. V. – М.: Академия наук СССР, – 1971. – с.163-276.

75 Консон, Г.Р. Целостный анализ в контексте научной методологии // Музыкальная академия, – 2010. № 2. – с.140-150.; Консон, Г.Р. Целостный анализ как универсальный метод научного познания музыкальных произведений (к постановке проблемы) [Electronic resource] // «Harmony» электронный журнал Выпуск №10/2011 URL:http://harmony.musigi-dunya.az/RUS/reader.asp?s=1&txtid=468

76 Ədilli, Ş.K. Əruz vəzninin sadələşdirilmiş qəlibləri / Ş.K. Ədilli. – Bakı, Adiloğlu, – 2011. – 50 s.; Ədilli, Ş.K. Azərbaycan şeirində forma məsələləri / Ş.K. Ədilli. – Bakı: Elm və Təhsil, – 2014. – 144 s.

77 Аязбекова, С.Ш. Картина мира этноса: Коркут-ата и философия музыки казахов: Монография / С.Ш.Аязбекова. – Изд. 2-ое. – Астана: – 2011. – 284 с.; Аязбекова, С.Ш., Аязбек С.А. Тюркская цивилизация: Теоретический и исторический аспект // Тюркский альманах, – Астана, – 2014, – с.172-195; Аязбекова, С.Ш. Тюрко-монгольская музыкальная общность в контексте номадической и тенгрианской цивилизаций // MONGOLICA – XX Сборник научных статей по монголоведению посвящен 200 -летию со дня основания Азиатского музея / Института восточных рукописей РАН – St.Petersburg – 2018. – с.42-52.

78 Утегалиева, С.И. Звуковой мир музыки тюркских народов (на материале инструментальных традиций Центральной Азии) / Диссертация на соискание ученой степени доктора искусствоведения / – Москва: – 2016. – 528 с.

tədqiqatda A.Əmrahovanın[79] Azərbaycan bəstəkarlarına rəğmən tətbiq etdiyi koqnitiv təhlil üsulu, informasiya əldə etməyin alternativ yolları araşdırılarkən Mümkün dünyalar nəzəriyyəsi (D.Lyuis və Q.Leybnits), Prototip nəzəriyyəsi (E.Roş), Kollektiv yaddaş fenomeni (E.Dürkgeym[80], M.Xalbvaks[81]), Ortaq ərazi nəzəriyyəsi və digər müasir elmi nailiyyətlərdən yararlanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat əsnasında əldə edilmiş nəticələr ümumləşdirilərək bu müddəalar müdafiəyə çıxarılır:

1. Çağdaş musiqinin verdiyi üslub azadlığı çərçivəsində C.Quliyevin texniki vasitə seçimi həmişə xalq musiqisində mövcud üsullarla üst-üstə düşür. Müasirliyin folklorda yaşayan real prototipi bəstəkarın əsas maraq dairəsidir. C.Quliyevin istifadə etdiyi elə bir müasir texniki vasitə və üslub yoxdur ki, onun xalq musiqisində analoqu olmasın.
2. C.Quliyevin yaratdığı xalq polistilistikası, yəni xalq musiqi janrlarının stilistikasını bir əsər çərçivəsində qarşılaşdırılması əsas üslub göstəricilərindən biridir.
3. Yaradıcılıq vektoru mürəkkəbdən sadəyə doğru yönəlmiş bəstəkarın xalq musiqi formalarını, inkişaf üsulları, şeir qəliblərinin, milli tembrlərin, rəqs janrlarının spesifikasını, semantik məzmununu ideallaşdırmaq niyyəti, xalq sadəliyinə yetişmək istəyi neofolklor təmayüllü yaradıcılığının əsas qayəsidir.
4. Aşıq musiqi formaları arasında mövcud sərhədlərin silinərək janr xüsusiyyətlərinin eyniləşdirilməsi beynəlmiləl xasiyyət alaraq Avropa musiqisini tamam yeni keyfiyyətlərlə zənginləşdirə bilən

---

[79] Амрахова, А.А. Когнитивные аспекты интерпретации современной музыки (на примере творчества азербайджанских композиторов) / диссертация на соискание учёной степени доктора искусствоведения / – М.: – 2005. – 325 с.

[80] Дюркгейм, Д.Э. Педагогика и социология / Дюркгейм Э. Социология. Ее предмет, метод, предназначение / Пер. с фр. А.Б.Гофмана. – М.: Канон. – 1995. – с.244-264; Дюркгейм, Д.Э., Мосс М. О некоторых первобытных формах классификации. К исследованию коллективных представлений / Мосс М. Общества. Обмен. Личность: Труды по социальной антропологии. – М.: Восточная литература. –1996. – с.6-73.

[81] Хальбвакс, М. Коллективная и историческая память / М.Хальбвакс // Неприкосновенный запас. – 2005. №2-3. – с. 8 - 27.

üsula çevrilir. Aşıq musiqisinin total variantlıq, kvarta-sekunda tərkibli olmaqla major-minordan qaça bilmək xüsusiyyəti, dissonansların harmonik şaqulu zənginləşdirə bilməsi, aşıq harmoniyasının özünəməxsus sonor səslənmələri, aşıq musiqisinin metro-ritmik özünəməxsusluğu həmçinin də müasir musiqi qarşısında duran məsələlərin həlli kimi görünür.

5. Bəstəkar xalq musiqisində yaşayan intonasiya özəkləri üzərində müəyyən transformasiya aparıb onları mümkün qədər kiçik hissələrə parçalamaqla sanki aforizm səviyyəsinə qədər ixtisar edərək konspektləşdirə bilir. Bu intonasiyalar müxtəlif mənbələrdən qoparılaraq tamam yeni qaydada, yəni bəstəkar ideyasına tabe olaraq yenidən modelləşdirilir.
6. Milli tembr dramaturgiyasını əlində əsas tutan C.Quliyevin çalğı alətlərimizə dair mövqeyi Ü.Hacıbəylinin konsepsiyasının davamı olaraq simfonik orkestrə milli alətlər qrupunun daxil edilməsinə qədər genişlənmişdir. Burada temperasiya məsələlərinin fərqli həlli yolları təklif edilir.
7. Xalq mahnısının strukturunu ideallaşdırmaq və bunu dövrün təsiri altında yaranan destruktiv təmayüllərə qarşı qoymaq üçün bədii ifadə vasitəsi kimi tətbiq etmək C.Quliyevin bəstəkar simasını təşkil edən vacib elementlərdən biridir.
8. Bəstəkarın fərdi yaddaşına arxalanaraq arxaik səslənmələri canlandırmaq, tarixi keçmişdən unudulmuş tembr çalarlarını qaytarmaq istəyi türkçülüyün intibahına xidmət edir. Erkən kvantitativ ritmikalı, məqam strukturunu saxlamaqla yanaşı arxaik intonasiyanı hələ itirməmiş bu sistem üç səviyyəli qədim türk dünya modeli üzrə reallaşır.
9. C.Quliyevin təklif etdiyi Vahid Muğam konsepsiyası həm milli ifaçılıq, həmçinin də milli bəstəkarlıq üçün tamamilə yeni, keçilməmiş, avanqard üsulların tətbiqini alqışlayan maraqlı cığırların fəthini vəd verir. Bu professional yol çağdaş zamanımızda qovuşmağa çalışan həm Qərb, həm də Şərq üçün gözlənilən çıxış yolu kimi görünür.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi C.Quliyevin yaradıcılığının müasir musiqi və xalq yaradıcılığı nəzəri sistemləri çərçivəsində kompleks şəklində tədqiq edilməsindədir.

Dissertasiyanın müasir musiqiyə dair hissəsi də bütün dünya bəstəkarları üzrə təsnifat edilərək milli məktəblər cədvəllərdə əks edilmişdir. Dissertasiyada ilk dəfə C.Quliyevin akademik janrlarda yazılmış bütün əsərləri tədqiqata cəlb edilmişdir. Bəstəkarın arxivinin böyük hissəsi istifadə edilmiş, elmi və publisistik məqalələri, müsahibələri, videoçarxlar, televiziya verilişləri, notları toplanaraq sistemləşdirilmişdir. Əsərlərinin yazılma, ifa tarixçələri sxem şəklində toplanmışdır. Bəstəkarın yaradıcı simasının bütün tərəfləri kifayət qədər ətraflı işıqlandırılmış, tələbə yaradıcılığından, erkən əsərlərindən tutmuş son dövrə qədər yaradıcılığı təhlil edilməklə vahid ideyanın açılmasına xidmət etmişdir.

Müasir tədqiqat üsullarının verdiyi imkan araşdırmanın hərtərəfli olmasını təmin edən əsas amillərdən biridir. Etnoqrafik təhlil üsullarının tətbiqi, arxaik folklorun araşdırılma qaydası, dodekafoniya, sonorika, minimalizm, aleatorika, instrumental teatr kimi avanqard cərəyanların təhlil qaydası və terminoloji bazanın tətbiqi, eləcə də noosfera nəzəriyyəsinin əsasını təşkil edən informasiya almağın alternativ yolları türkçülük ideyalarının cücərməsini izah etməklə bəstəkarın yaradıcılığının əsas qayəsinin açılmasına təhkim edilmişdir.

Şeir qəliblərinin musiqi formasına çevrilməsi faktı da bəstəkar yaradıcılığında ilk dəfə idi müşahidə edilirdi. Dissertasiyada C.Quliyevin notoqrafiya üsullarına xüsusi diqqət ayrılmış, aşıq musiqisində rast gəlinən kadans növləri, həm vokal, həm də instrumental muğamda işlənən ifa üsullarının yenidən mənalandırılması prosesinə işıq salınmışdır.

Dissertasiyada üçpilləli qədim türk dünya modelinin bəstəkar yaradıcılığına tətbiqi milli musiqişünaslıqda cücərməkdə olan musiqi türkologiyası[82] istiqamətində perspektivli cığırlar açır.

---

[82] Məmmədova, R.A. Musiqi türkologiyası / R.A.Məmmədova. – Bakı: Elm, – 2002. – 84 s.; Məmmədova, R.A. Musiqi türkologiyasının əsasları // Musiqi dünyası, – 2022, 1 (90) – s. 22-27.; Hüseynova, L.Ş. Musiqi türkologiyasının tədqiqat istiqamətləri və problemlərinə dair // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: ADMİU, – 2017. – s. 26-29.; Xalıqzadə, F.X. Musiqi türkologiyası: nailiyyətlər, perspektivlər // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: – 2016. – s. 39-42;

Bəstəkarın intonasiya təhlili üsulu ilə əldə edilmiş fərdi lüğətinin elementləri prototürk intonasiyasının aşkar edilməsi istiqamətində müəyyən tapıntılar aşkar edir. Müəllifin dissertasiyada bəstəkarın intonasiya lüğətini yaratmaq cəhdi milli musiqişünaslığımız qarşısında yeni vəzifələr formalaşdırır. Çünki müəyyən bəstəkarın fərdi intonasiya lüğəti yaranmazdan əvvəl milli musiqi janrları, muğam, aşıq musiqisi, xalq mahnı və rəqsləri, arxaik folklorun [83] ayrılıqda intonasiya lüğətləri yaradılmalıdır ki, elmi tədqiqat işləri bu mənbələrə istinad edə bilsin.

Yekunda bəstəkarın müəllif imzasının bütün əsərlərdə müşahidə olunması ilə transformasiyaya uğrayan izlərinin aşkar edilməsi C.Quliyevin yaradıcılığının koqnitiv məzmununun tam açılmasına xidmət edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Folklorda müşahidə etdiyimiz qanunauyğunluqlar bəstəkar yaradıcılığında eyni prinsip əsasında inkişaf edir [84]. Müasir dövrə məxsus bəstələmə texnikası, fərqli təfəkkür tərzinə baxmayaraq bir bəstəkarın yaradıcılığında bu qanunauyğunluqları izləyib ortaya çıxarmaq daha rahatdır. Aşkar edilmiş qanunauyğunluqları, inkişaf prinsiplərini, intonasiya və ritmik özəllikləri təşnifatlaşdırmaq mümkün olarsa bu həmçinin xalq musiqisinin tədqiqi və etnomusiqişünaslığın inkişafı üçün daha geniş imkanlar açmış olar. Hipoteza qismində təklif edilmiş bu iddia, yəni bəstəkar yaradıcılığı vasitəsilə milli folklor janrlarının qanunauyğunluğunu öyrənmək cəhdi kifayət qədər maraqlı və perspektivli görünür. Bu tip araşdırma üçün neofolklor cəhətləri daha parlaq sezilən Cavanşir Quliyevin yaradıcılığının seçilməsi də məqsədə uyğundur. Çünki bu bəstəkarın yaradıcılığında Azərbaycan musiqisinin bütün – folklor, ənənəvi, professional janrları özünəməxsus şəkildə öz həyatını davam edir.

---

[83] Manafova, G.R. Arxaik folklorun bəstəkar yaradıcılığında təzahür aspektləri: Cavanşir Quliyevin əsərləri nümunəsində // Konservatoriya, – Bakı: – 2020, 4. – s.17-40.

[84] Manafova, G.R. Folklor modellərinin bəstəkar yaradıcılığında ideal prototip qismində tətbiqinə dair (Cavanşir Quliyevin əsərlərinin nümunəsində) / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XXI Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: ADMİU-nun mətbəəsi, – 2022, – s.149-166

Tədqiqat C.Quliyevin yaradıcılığını tam əhatə edən ilk iri elmi araşdırma olduğundan bəstəkarın məqalələri, kitabları, notoqrafiyası, diskoqrafiyası və geniş ədəbiyyat siyahısını təqdim edərək həmçinin biblioqrafik əhəmiyyətə malikdir.

Folklor və bəstəkar rakursundan təhlil edilmiş bu araşdırmada tədqiqat obyektinin notasiya üsullarına xüsusi diqqət ayrılması milli musiqi janrlarının notasiya məsələlərinə diqqət yönəltməyə vadar edir. C.Quliyevin tətbiq etdiyi müasir notasiya üsullarının səslənmə etibarilə orijinala, yəni xalq musiqisinə daha yaxın olduğunu nəzərə alsaq etnoqrafik materialın tərtibində nümunə qismində tətbiq edilə bilər[85].

Folklor və bəstəkar yönümlü araşdırmalar da Azərbaycan musiqişünaslığında gözlənilən və alqışlanan mövzu olduğundan bu qəbildən olan dissertasiya işləri müəyyən maraq doğurur. Bununla belə bəstəkarın folklora təsir mexanizmlərinin araşdırılması aktual mövzu olaraq qalmaqdadır.

Dissertasiyanın materialları "Müasir musiqi", "Azərbaycan musiqi tarixi", "Musiqi əsərlərinin təhlili", "Etnomusiqişünaslıq", "Tədqiqat metodologiyası", "Türk xalqlarının musiqisi" fənləri üzrə tədrisdə dərs vəsaiti kimi yararlı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan yerli və xarici elmi dərgilərdə çap edilməklə, eləcə də respublika səviyyəsində və Azərbaycan, Rusiya, Tatarıstan, Qazaxıstan, Özbəkistan, Türkiyənin təşkil etdiyi beynəlxalq konfranslarda çıxışlar zamanı aprobasiyadan çıxmışdır. Tədqiqat işinin əsas müddəaları yerli və xarici xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan elmi nəşrlərdə dərc edilən 22 məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi

[85] Манафова, Г.Р. Композиторское творчество как дополнительный материал при изучении этнографических особенностей национальной музыки. (На примере произведений азербайджанского композитора Джаваншира Кулиева) // Сборник материалов Международной научно-практической конференции к 150-летию Александра Затаевича «Личность, традиция, культура в музыкальной этнографии». 6-7 июня 2019, – Алматы: – с.309-319.

və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmiş və müzakirəyə çıxarılmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, 3 fəsil, 12 paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və özündə qeydlər, nümunələr, cədvəlləri əks edən əlavələrdən ibarətdir. Giriş 9 səhifə, 16421 işarədən, I fəsil 24 səhifə, 47255 işarədən, II fəsil 76 səhifə, 151002 işarədən, III fəsil 48966 işarədən, Nəticə 6 səhifə 12 366 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 140 səhifə (İstifadə edilmiş ədəbiyyat siyahısı və Əlavələr bölməsi istisna olunmaqla), 276 011 işarə sayından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Bəstəkar yaradıcılığında neofolklorizmin yaranması və təşəkkülü**" adlı I fəsli XX əsr boyunca meydana çıxan cərəyanların ümumi fonunda folklorizm hadisəsi və neofolklorizm, bəzən "yeni folklor dalğası" adlandırılan cərəyanın yaranması və inkişafı rakursuna həsr edilib. I fəsildə folklorizm mənzərəsi fonunda "Folklor və bəstəkar" probleminin həlli yolları, dünya musiqisində folklora marağı stimullaşdıran amillər işıqlandırılır. Əsrin sonunda hakim olan istiqamətlər, o cümlədən neofolklorizm də, postmodernizm məcrasında avanqardın II dalğası kimi artıq steril üslub və avanqardın elitarlığına qarşı bir növ etiraz aksiyasına bənzəyirdi. Amma dünya avanqardından uzaq düşmüş Azərbaycan professional musiqisində bəstəkarlar heç vaxt B.Asafyev demişkən "intonasiya böhranı" ilə baş-başa qalmadılar. Çünki bu, hələ də canlı orqanizm kimi həyatını davam edən Azərbaycan folkloruna aid edilə bilməzdi. Bu səbəbdən canlı folkloru, bəstəkar musiqisində izlənən folklorizm və neofolklorizm cərəyanını bir-birindən fərqləndirməyimiz vacibdir. Neofolklorizmin əsas fərqləndirici xüsusiyyəti yeni texniki vasitələrin tətbiqi, yenilənmiş musiqi dilinin bütün arsenalından uğurla istifadə edilməkdədir. Folklor materialının öz bəstəkar versiyasını təklif edən neofolklorçularda folklor intonasiyaları müəllif üslubu ilə dialoqa daxil olaraq, onu zəngilnləşdirərək yeni həyat verə bilir. İki bədii sistemin

qovuşmasından formalaşan bu cür unikal yaradıcı təcrübə hazırda Azərbaycan bəstəkarlıq məktəbinin neofolklor yönümlü nümayəndələrinin əsərlərində maraqlı, bir çox hallarda hətta gözlənilməz nəticələr şəklində izlənilməkdədir. Fəaliyyəti 70-ci illərdən sonraya təsadüf edən bir sıra müəlliflər (A.Əlizadə, F.Qarayev, F.Əlizadə, R.Həsənovanın çalışmaları bir qədər və C.Quliyevin yaradıcılığı müfəssəl işıqlandırılıb) Azərbaycan professional musiqisinə tamam yeni intonasiya gətirə bildilər.

C.Quliyev[86] müasir bəstəkar olaraq, Q.Qarayevin Azərbaycan professional musiqisində açdığı yenilikçi cığırlarla irəliləyərək avanqard musiqinin bəzi üslub və vasitələrdən yararlanır. Q.Qarayevin "Necə də gözəldir..." epitetinə layiq görülmüş C.Quliyevin kəşf etdiyi ifa və notasiya üsulu (simli alətlərdə (*sul tasto, sul ponticello* – səsi uzadarkən yay kamanın qolundan (*sul tasto*) xərəyinə doğru (*sul pont*) və geriyə hərəkət edərkən artıb azalan, sanki sferik şəkildə böyüyüb kiçilən spesifik səs dalğaları yaranır), eləcə də kvarta flajoleti (çox vaxt qlissandolu) – folklor səslənmələrindən təkan almış bu tapıntılar dünya musiqisində böhran durumundan çıxış yolu kimi şərh edilirdi[87].

C.Quliyevin bədii hədəfi milli musiqi janrları ilə müasirliyin sintezi olduğundan, əsərlərdə muğamsayağı ifa azadlığına çatmaq və improvizəni öz məqsədlərinə tabe etməkdə daha uyğun vasitə məhz aleatorika oldu. C.Quliyevin əsərlərindəki aleatorika məhz məhdud aleatorikanın zona (çərçivə) notasiyası növünə aid edilə bilər.

---

[86] Cavanşir Quliyevin Classik Online resursunda fərdi səhifəsi. Əsərlərin səslənmələri. URL:http://classic-online.ru/ru/composer/Guliyev/13205

[87] Ekimovsky, V. Javanshir Kuliyev //Music in the USSR, – 1985, july-september, – p.95; Бретаницская А.Л. Форум молодежный – проблемы общие. // Советская музыка, – 1987, № 8, – с. 31-39.; Шантырь, Н.Г. Оттого, что в кузнице не было гвоздя. // Юность, – 1988, № 9. URL:http://soveticus5.narod.ru/zhurn/kuzn.htm; Прецкер, М. СССР-США: новый диалог музыкантов // Музыкальная жизнь, – 1987, №22, – с.17.; Абдуллаев, К.Дж. Музыка служит миру. // Баку. – 1987. – 26 октябрь.; Эшпай А. Задачи советской музыки на современном этапе и творчество молодых композиторов. // Советская музыка, – 1984, №3, – с.24-30.; Долинская, Е. Отчет и праздник. // Советская музыка, – 1986, №3, – с.32-34; Душан Михалек. // Баку, 24 апреля – 1981 г.

“Postmodernizmin ərköyün balası” adlandırılan minimalizm konsepsiyası müasir dövr bəstəkarlarının, eləcə də tədqiqat obyektimiz C.Quliyevin də yaradıcılığında asanlıqla izlənir [88]. Qənaətçilik prinsipini əsas tutan bəstəkar repetitivlikdə tar və saz ifaçılığına, qısa motiv təkrarları hesabına orijinal naxış yaradan pattern bəstələmə texnikasında isə muğam minimalizminə dayaqlanır. C.Quliyevin musiqisində müşahidə etdiyimiz addisiya dairəvi hərəkət prinsipi (*additive process*) həmçinin rəqsvarilikdən qidalandığına görə aşıq minimalizmindən danışmağa əsas verir.

C.Quliyevin zərb alətlərinə münasibəti ritm və dinamikanı önə çəkən İ.Stravinski və koloristikaya önəm verən B.Bartokun mövqeyi arasında qərarlaşması mahiyyət etibarilə adı çəkilən bəstəkarların folklora münasibətilə sıx əlaqədardır. C.Quliyevin əksər əsərlərində sadiq qaldığı alət seçimi kimi B.Bartokun tətbiq etdiyi zərb alətləri qrupu ilə çox bənzərdir[89].

Amerikalı musiqişünas Teodor Levinin fikricə C.Quliyevin əsərləri Şərq və Qərb musiqisinin qarşılıqlı təsirinə gözəl nümunədir. Musiqişünas C.Quliyevlə Con Keyc arasında yaradıcı baxımdan oxşar cəhətləri müşahidə etdiyini səsləndirib[90].

II fəsil “**C.Quliyevin yaradıcılığında milli musiqi paradiqmalarının təzahürü**” adlanaraq bəstəkarın yaradıcılığında aşıq musiqisi, muğam, folklor janrları (mahnı və rəqslər), xalq çalğı alətlərini istifadə prinsiplərinə həsr edilib.

**2.1. Aşıq musiqisi C.Quliyevin əsas üslub yaradıcı prinsiplərindən biri kimi** müşahidə edilir və qədim türk epik nəqletmə ənənələrinin müasir anlamda bərpasına xidmət edir [91]. “Aşıq Qərib” filminə musiqi [92] (1988) aşıq musiqisinin tətbiq üsullarını formalaşdırmaq istiqamətində işarəvi əsərlərdən biridir.

---

[88] Manafova, G.R. “Yeni dünya modeli” – minimalizm prinsipləri Cavanşir Quliyevin əsərlərində // Musiqi dünyası, – 2022 3/92, – s.67-70.

[89] Денисов, Э. Ударные инструменты в современном оркестре. – Москва: Советский композитор, – 1982. – с.59.

[90] Абдуллаев, К.Дж. Музыка служит миру // Баку. – 1987. – 26 октябрь.

[91] Manafova, G.R. Aşıq musiqisi bəstəkar yaradıcılığında. // Konservatoriya, – 2017, 1(35), – s. 83-95 URL:http://konservatoriya.az/?p=2299

[92] “Aşıq Qərib” filmi (Gürcüstanfilm, 1988. Rejissorlar: Sergey Paracanov, Dodo Abaşidze, bəstəkar Cavanşir Quliyev)

Filmin musiqisində muğam, aşıq havaları, bəstəkar musiqisi, klassik musiqi nümunələri və səs-küy effektləri ilə üst-üstə qalanıb. Filmin dastan təki məzmun bloklarından qurulması (Aşığın dərdi, Göy məsciddə and, Aşığın oxşama mərasimi, Xeyirxahlıq və s.) ozançılıqla bağlı simvola çevrilir. Filmdəki dəvələr, karvan yolları, yolun ritmik simvolu, qızıl qəfəsdə oxumayan, müharibələrdən qaçan aşıq obrazını biz sonralar C.Quliyev yaradıcılığında müxtəlif transformasiya formalarında izləyəcəyik. Bəstəkarın bəyan elədiyi əsas fikirlərdən biri, qovulmuş insan obrazının özü də ozançılıqdan qaynaqlanan ideyadır. Bəstəkar filmdə əsil aşıq havalarını, saz improvizələrini, muğam epizodlarını o qədər ustalıqla ümumi fona pərçimləyir ki, onlardan hansının bəstələnmiş olduğunu duymaq, səslənən havanın real prototipini müəyyənləşdirmək mümkünsüz görünür. "Aşıq Qərib" dastanındakı tərkidünya, maddi rifahdan imtina etmiş, yol yolçusu olan ozan obrazı C.Quliyevin əsərlərində ("Dastan" adlandırılmış 4-cü simfoniya və "Oğuznamə" baleti) nisbətən sonra daha aydın şəkildə təzahür edəcək. Nəql edilmiş əhvalatın sonunda qəhrəmanın xalqa geri qayıtmaması C.Quliyevin "söylədiyi" dastanları xalq versiyasından fərqləndirən əsas xüsusiyyətlərdən biridir. İnsanın kamillik yolunu simvollaşdıran YOL kateqoriyası C.Quliyevin yaradıcılığında demək olar hər yerdə saz tembri ilə müşayiət edilir. Bununla belə bəstəkar aşıq musiqisini donor mətni kimi istifadə etmir.

Melodik tərtibatda melizm zənginliyi, məqam müxtəlifliyi ilə seçilən milli musiqidən aşıq musiqisinin məqam əsası olan şurun fərqləndirilməsi, məqamın **leytintonasiya**, **leytməqam** səviyyəsinə qədər yüksəldilməsi C.Quliyevin musiqi dilinin daha bir özəlliyidir. Onun yaradıcılığında bütün müsbət qəhrəmanlar, canlı insan həyatına aid olan hadisələr, bəstəkarın özəl saydığı bütün duyğular şur üstündə səslənir.

İnstrumental aşıq ifaçılığı və saz imitasiyası C.Quliyevin bütün əsərlərində qırmızı xətlə izlənən müşahidədir [93] . Burada bəstəkar

[93] Манафова, Г.Р. Следы ашыгской музыки в сонате для скрипки и саза Джаваншира Кулиева // Традиционная культура тюркских народов в изменяющемся мире: материалы I Международной научной конференции (12-15 апреля 2017 г.). – Казань: Ак Буре, – 2017. – с. 301-304.

ənənəvi ifa üsullarını, sazın kökünü, aşıq musiqisi janrlarını saxlamaq şərtilə avanqard musiqinin tələblərinə uyğun səslənmələr əldə edə bilir. Xüsusi qaydada vurğulanıb və fərqli applikaturanın tətbiq edilməsi, yəni alt və üst mizrabların növbələşməsi sırf Azərbaycan aşıqlarının özünəməxsus ifaçılıq tərzini təmsil edir. Bu zaman ifaçının sazın çanağına barmağı ilə endirdiyi zərbələrin yaratdığı ritmik formullar xüsusilə də aleatorik azadlıq çərçivəsində son dərəcə müasir səslənir. Aşıq havası ruhunda musiqini bəstələmək müəllifin dediyinə görə qarşısına qoyduğu ən çətin məsələlərdən biri idi. Ümumilikdə C.Quliyevin musiqisində aşıq havasının təsiri Vətən, torpaq və xalqla bağlı döyüşkən ruhlu marşvari musiqidə[94] daha aydın duyulur.

**2.2. Şeir vəznlərinin metro-ritmik xüsusiyyətlərinin musiqiyə təsiri** daima ənənəvi şifahi və professional xalq yaradıcılığına təsir göstərən vacib amillərdəndir. Sinkretik sənətlərin intibahına can atan müasir zamanın bəstəkarı olan C.Quliyevin yaradıcılığında aşıq şeirinin 3 əsas forması – bayatı, gəraylı, qoşmanın müxtəlif dərəcəli təzahür formalarının izləmək mümkündür. Xalq yaddaşının qeyri-ixtiyari seçdiyi bu 3 şeir formasına uyğun olaraq C.Quliyevin yaradıcılığından 3 əsər: Aşıq Ələsgərin sözlərinə bəstələnmiş "Dönübdü" *a cappella* xorunu[95] (1977-82), saz və violin üçün Sonatanı (1980) və "Bayatı" (2004) əsərini tədqiqata cəlb etmişik[96]. "Dönübdü" xorunda qoşma, Sonatada gəraylı və "Bayatı" poemasında bayatı şeirinin metro-ritmik xüsusiyyətləri analoq modelləşdirilməsi yolu ilə reallaşdırılıb. Xalq şeirindən, xüsusilə də bayatılardan heyranlıq duyan C.Quliyevin əksər əsərlərində melodik sətirlər klassik sual-cavab prinsipinə əsaslanaraq bayatıda olduğu kimi *aaba* quruluşundadır.

---

[94] Mustafa Kamal Paşa marşı (2001), İrəvan Türk Cümhuriyyətinin Dövlət himni (2021), Əsgər marşı "Zirvə" (2021), Turan marşı (2022) və s.

[95] Manafova, G.R. C.Quliyevin "Dönübdü" *a cappella* xorunda musiqi dilinin özəllikləri // Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransının materialları, II cild 24-25 oktyabr 2017-ci il. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – 2018, – s. 257-260.

[96] Manafova, G.R. Şeir vəznləri və formalarının bəstəkar yaradıcılığında tətbiqinə dair // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: ADMİU-nun mətbəəsi, – 2017, – s. 152-159.

Bundan əlavə cümlələrin kadanslarla "qafiyələnməsi" də müşahidələri sübut edir. Milli şeirin təkamülünü və eləcə də xalq yaddaşında buraxdığı ritm-metrik naxışların gözəl bilicisi olan C.Quliyevin müraciət etdiyi şeir formalarını – əvvəl qoşma (1977), sonra gəraylı (1980), sonunda bayatı (2004) olmaq şərtilə izləsək bəstəkarın yaradıcılığında təkamülün mürəkkəbdən sadəyə doğru getdiyini aydın hiss edərik[97]. Bayatı həm forma, həm məzmunca bəstəkar üçün kamillik rəmzi olduğundan bu yol sadəlik və aydınlığa, öz kökünə qayıtmanın bədii simvolu kimi qavranıla bilər.

**2.3. Muğam – təfəkkür və kompozisiya prinsipi kimi** Azərbaycan bəstəkarlarını fərqləndirən ən əsas keyfiyyətlərdən biridir. Xalq dilində yazan bir bəstəkar olduğundan Cavanşir Quliyevin artıq formalaşmış dəsti-xəttində muğam xüsusiyyətlərinə[98] bu ardıcıllıqla təsnifat vermək olar:

- Muğam dəstgahının yeni mövcudluq formaları;
- Musiqinin bəhrsizliyinin köklərinin məhz muğamla bağlılığı;
- Muğamı bir mədəni qat kimi digər xalq yaradıcılığı formaları ilə toqquşdurmaqla yeni bədii-estetik təsir mexanizmləri əldə etmək cəhdləri;
- Muğam melodikası və bəzəklərdən, zəngulələrdən istifadə etməklə fərqli muğamvarilik elementləri yaratmaq;
- İfaçılıqdan doğan xüsusiyyətlərin yenidən incələnməsi;
- Məqamları emosional rənglərinə, təsir dairəsinə uyğun istifadə etmək;
- Muğam kadanslarının rəmzlər kimi tətbiqi;

---

[97] Манафова, Г.Р. Музыкально-формообразующие возможности народного стихосложения на примере произведений Джаваншира Кулиева // «Искусство как феномен культуры: традиции и перспективы». Материалы Международной научной конференции Академии им. Маймонида (12–15 апреля 2017 г.). – Москва: – с.173-181; Manafova, G.R. Şeir vəznləri və formalarının bəstəkar yaradıcılığında tətbiqinə dair / "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: ADMİU-nun mətbəəsi, – 2017, – s. 152–159.

[98] Manafova, G.R. Cavanşir Quliyevin dəst-xəttində muğam rəmzləri // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XVII Beynəlxalq elmi-praktiki konfransın materialları. 12–13 may 2018-ci il, – Bakı: ADMİU-nun mətbəəsi, – s. 96-102

- Milli məqam sistemində yönəlmə və modulyasiya yollarının gözlənilməz tətbiqi;
- Müasir yazı üsulları ilə milli məqamların yeni təqdimatı;
- Bütün muğamları birləşdirə biləcək Vahid Muğam yaratmaq cəhdləri.

Bütün sadaladığımız müddəalar Vahid Muğam ideyasının təşəkkül mərhələləri təəssüratını bağışlayır, çünki bəstəkar bütün ömrü boyu bu ideyanın reallaşması istiqamətində çalışıb. Milli musiqidən ən lazımlı genoformula adlandırılmış [99] bu özəkləri toplamaqla nadir incilər kolleksiyaçısı kimi davranan bəstəkar xalq havalarının mövzu özəklərinə də muğam improvizə azadlığı verir.

Biz C.Quliyevin əsərlərində məqamların təkcə emosional boyası ilə deyil, həm də ifaçılıqda mövcud olan, amma nəzəri cəhətdən hələ tam araşdırılmamış tonal münasibətlər sisteminin də təcəssümünü müşahidə edirik[100]. Sürüşkən istinad pərdəli melodik inkişaf arxaik folklorda daha çox müşahidə edilir və bu hadisə iç-içə ladlar, yaxud bir-birindən doğan məqamların toplusu ana düzən anlamına gətirir.

C.Quliyevin musiqisi səsin emansipasiyası dövrünü müasirləri ilə bərabər yaşasa da tamamilə tonal musiqidir. C.Quliyev muğamın özünü atonal musiqi çərçivəsinə aid edir. Bu səbəbdən bəstəkarın Vahid Muğam ideyası da müasir təfəkkür tərzinin məhsulu olaraq bütün Şərq dünyasına aid, məqamlardan yüksəkdə duran səs mühitinin yaranmasına gətirib çıxara bilər. Bəstəkarın muğamı konspektləşdirmək, onun bütün mahiyyətini kiçik motiv və kadanslara qədər endirmək cəhdləri muğamı tam şəkildə artıq tanıyan insanın səs yaddaşına arxayın olmasından doğur. Bu kiçik muğam aforizmləri oradan bütöv bir dəstgahın yarada biləcəyi informasiyanı oyadır.

C.Quliyevin musiqisində **2.4. Folklor musiqi janrlarının inikasını** müqayisəli şəkildə araşdırmaq məqsədilə müxtəlif

---

[99] Мамедова, Р.А. Об этноморфологическом анализе азербайджанской народной музыки // Musiqi dünyası, 1 (58), – 2014. – s. 7056-7064.

[100] Manafova, G.R. Azərbaycan məqam sistemində yazılmış 12 xromatik tonlu musiqiyə ilk nümunə // Qloballaşan dünyada musiqi ənənələri I Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: Ecoprint, 26-27 oktyabr, – 2017, – s. 341-347.

dövrlərdə yazılmış əsərlərin struktur təhlili zamanı əldə edilmiş forma modelləri xalq musiqisi formaları ilə müqayisədə maraqlı paralellər çəkməyə imkan yaradır. Bəstəkarın musiqi dilində dəstgah formasını reallaşdıran muğam cümlələrinin mövcudluğu, əsas şöbələrə xas alterasiya və spesifik kadans gedişləri erkən dövr yaradıcılığında daha çox rastlaşdığımız hadisədir və tarzən kimi aldığı musiqi təhsilindən qalma barmaq yaddaşı ilə rahat izah edilir. Muğamın fraktalıq xüsusiyyəti, melodik özəkdən geniş musiqi cümləsi yarada bilmək qabiliyyəti, ton ətrafında dolaşmalar, təkrar-təkrar geri qayıdıb təsdiqlənmələr mahiyyət etibarilə spiralvarı fiqurlar yaradaraq dinləyicini tamamilə təbii olan təbiət qüvvələrin enerjisinə qoşulmağa vadar edir. Muğamvarilik [101] öz daxili simmetriyası və fərqli quruluş yaratmaq xüsusiyyətilə bərabər bəstəkara daxili kanonlar çərçivəsində öz strukturunu yaratmaq qədər böyük azadlıq çərçivəsi təklif edir.

Kvadrat quruluşa bir etiraz olaraq əmələ gələn qeyri-simmetrik struktur elementləri – cümlələrin artan xanə sayı, ilk iki cümlənin istinad tonuna qayıdıb üçüncü dəfə təkan edərək iki dəfə böyüməsi prinsip olaraq gələcək əsərlərdə izlənən spiralvarı strukturun yaranmasına gətirib çıxaran amillərdən biri olacaq. Tədricən böyümə prinsipini bədii vasitəyə çevirən C.Quliyev artıq yetkin dövründə müşahidə etdiyimiz 3 cümləlik artan spiralvarı struktur (a-a1-b) tədricən üslub xüsusiyyətləri əhəmiyyətini kəsb etməyə başlayır. Əksər hallarda Vətən mövzusunda yaranan bu tip melodik strukturların tədricən artan spiralvarı quruluşda olması bəstəkarın sevib ürək qızdırdığı mövzularla əlaqədar meydana gəldiyini deməyə əsas verir.

Simmetriya və kvadratlıq isə ideal struktur funksiyası daşımağa başladıqca biz C.Quliyevin əsərləri sırasında tamamilə kvadrat quruluşa tabe olan nümunələrin ("Necip Fazıl" oratoriyasından "Vatanımda vatanım" xoru, "Anneme mektub" səhnəsi Kipr dövründə yazılmış Kıbrıs süitasından "Səhər rəqsi" və s.) yetkin dövr yaradıcılıqda peyda olmasını müşahidə edirik. Sanki bəstəkar heç

---

[101] E.Abbasovanın termini. Абасова, Э., Мамедов, Н. Мугам и азербайджанский симфонизм. // Макомы, мугамы и современное композиторское творчество. – Ташкент: – 1978, – с.208-216.

vaxt atonal, mürəkkəb, aleatorik bloklarla yüklənmiş musiqi yazmayıbmış. Yaradıcılıq yolunun zirvəsində bəstələnmiş “Müşfiq ağıları” oratoriyası C.Quliyevin üslub və forma xüsusiyyətlərinin təkamülü baxımından yekun sözü demək üçün əlverişli əsərdir. Burada nəğməvariliyin sərt aleatorika ilə, sadə xalq strukturlarının sındırılmış forma elementləri ilə, ifadəli intonasiya özəklərinin deklamasiya, fərdilikdən məhrum musiqi elementləri ilə toqquşdurulmasını müşahidə edirik.

Müntəzəm ritmin əbədiyyətin, yaxud ölümün rəmzi kimi tətbiqi, mənfi personajların yalnız ritmik xasiyyətnaməyə layıq görülməsi, bu mövzuların xalq musiqisində mövcud olan vurğu sistemindən fərqləndirilməsi bir bədii vasitə olaraq əksər əsərlərdə uğurla tətbiq edilmişdir.

Xalqın yaşamının şəksiz simvolu saya biləcəyimiz 6 səkkizlik hesabı və el arasında “Üç badam bir qoz” adlanan ritmik formul[102] C.Quliyevin yaradıcılığında obraz təmsilçisi səviyyəsinə qədər yüksələrək müəyyən təkamül prosesini keçib[103]. Bu ritmik formulun təkamülü sayəsində (“Muğam səssıralarında 7 pyes” fortepiano məcmuəsi, III simfoniyanın Final hissəsi, “Bayatı” poeması, “Karvan” triosu, “Dastan” simfoniyası və s.) rəqs ritmikasının fərqli funksional yük daşıması “Dastan” simfoniyasının əsas mahiyyətini əks edən nadanlıq mövzusunun transformasiyası zamanı baş verir. Bu əsərdə xalq şənliyinin simvolu və tanınmaz dərəcədə dəyişdirilmiş ritmik formul musiqi standartlarını məhv etmək, insanın əsrlərcə zərrə-zərrə topladığı sehrli olduğuna inandığı intonasiya, forma, ritm meyarlarını qısa zamanda heçə endirməklə insanlıqdan çıxmış müasir cəmiyyətin portretini realistcəsinə əks

[102] İ.Abezqauz Üzeyir Hacıbəylinin “Koroğlu” operasını araşdırırkən [Абезгауз, И.В. Опера «Кероглы» Узеира Гаджибекова. О художественных открытиях композитора. – М.: Сов. композитор, – 1987, – 230 s.] “beşhecalı ritmoformul” kimi adlandırdığı bu ritmik formulun təhlildə bu şəkildə tətbiqi məqsədəuyğun görünmür, çünki dilimizə tərcümədə ifadə anlaşıqlı deyil. Belə deyim rusdilli auditoriya üçün daha məqbuldur. “3 badam 1 qoz” deyimi ritmik formulu canlandıran verbal kod kimi yaddaşlarda daha dərin iz buraxıb.

[103] Manafova, G.R. C.Quliyevin yaradıcılığında xalq rəqs janrlarının təkamül prosesi. //“Qloballaşan dünyada musiqi ənənələri” II Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: 14-16 noyabr – 2022. – s. 289-297.

edir. Müşahidələrin əsnasında belə nəticəyə gələ bilərik ki, “Dastan” simfoniyasında tamam məhv edilmiş ritmik formul xalqın ən gözəl, ümdə niyyətlərinin, bütün yaxşılıqların simvolu olduğundan artıq C.Quliyevin yaradıcılığında əvvəlki sadəlövhlüyü və bakirəliyi ilə bir daha peyda olmadı.

Bayağılıq simvoluna çevrilmiş ritmik formul tədricən yoxa çıxsa da əvəzində yallı və cəngilərdən ibarət bəlkə də bütöv bir rəqs qalereyası əmələ gəldi. “Oğuznamə” baletində yallı və cəngilərin çeşidli növlərini müşahidə edirik. Rəqslərin əksəriyyəti xalq rəqs musiqisinin modeli üzrə qurulduğundan milli rəqsləri öyrənmək üçün etnomusiqişünaslara əlavə tədqiqat material kimi xidmət edə də bilərdi. “Oğuznamə” baletində ritmik özəllik, rəqslərin heyrətamiz ritmik tərtibatı və şəkildəyişmələri, bəzi obrazların yalnız ritmlə xasiyyətləndirilməsi XX əsr musiqisində məhz ritm sahəsində inqilab etmiş İ.Stravinskinin arxaik folklora əsaslanmaqla tamam yeni ritm-intonasiya yaratmış “Müqəddəs bahar” baleti ilə müəyyən paralellər çəkməyə əsas verir. Balet boyunca yallı ritmikasının müəyyən transformasiyasını izləyir və qrotesk yallıların peyda olmasını xalq ritmikasının inkişaf prosesinə aid edə bilirik. Azadlıq ideyasının simvolu kimi cəngivariliyin, qəhrəmaniliyin insan keyfiyyətlərinin ən alisi kimi yuxarı başa çıxarılması xalq məntiqi ilə, eləcə də C.Quliyevin dünyagörüşündə tamam üst-üstə düşən məqamlardır. Zurna solosu ilə xalq şənliyinə start verilməsi, yallı gedən xalq mənzərəsi, müxtəlif xarakterik rəqslərin ardıcıllaşması, bu səhnənin ən yüksək nöqtəsində cəngi ritmləri və zurna solosu ilə son nöqtəni qoymaqla cərəyan edən bu prinsipin inkişaf zirvəsində Azadlıq ideyalarının (Zurna və BSO üçün Uvertüra, III simfoniya, “Bayatı” poeması, “Dastan” simfoniyası, “Oğuznamə”, “Kızılırmak” baletləri, “Necip Fazıl” oratoriyasında “Böyük Doğu” ideyası, “Müşfiq Ağıları” oratoriyasında Azadlıq marşı və s.) tərənnümünə xidmət etməsi C.Quliyevin bəstəkar simasının mahiyyətini təşkil edir.

**2.5. C.Quliyevin yaradıcılığında xalq çalğı alətlərinin istifadə prinsipləri** də xalq tembr dramaturgiyasının iri miqyasda tətbiqi hesab edilə bilər. Milli alətlərin tətbiqi məsələləri bəstəkarın bir neofolklorçu kimi önəm verdiyi prioritet məsələ qismində həmçinin C.Quliyevin üslub xüsusiyyətlərini formalaşdıran, milli

məzmun verən paradiqmadır. Səs ixtiraçılığı, milli alətin simfonik orkestrə daxil edilməsi (Zurna və simfonik orkestr üçün Uvertüra), birgə çalğısı mümkünsüz olan alətlərin dueti (saz və violin üçün Sonata), müxtəlif millətlərin alətlərini yanaşı tətbiq etmə prinsipləri ("Bayatı" poeması, "Karvan" triosu), xalq çalğı alətləri qrupunun simfonik orkestrdə iştirakı ("Necip Fazıl" oratoriyası), saz (bağlama) qrupunun simfonik orkestrə daxil edilməsi ("Oğuznamə" baleti), Avropa alətlərinin milli alətləri imitasiya etməsi – C.Quliyevin çalğı alətlərimizə dair konsepsiyasının reallaşma istiqamətləridir. Əsərlərdə biz milli alətlərin bütün çalğı imkanlarının təcəssümü ilə rastlaşırıq. Züy tutmaq, eyni səsin sürətlənən təkrarları hesabına (bu effekt tar ifaçılığında çox yayılıb) cümlə yekunlaşdırmaq, kamanlı alətləri axımlı ifa tərzi (bəzən "Habilin kamanı" kimi xarakterizə edilən ifa üslubuna çox yaxın), dinamika vasitəsilə fikir tənzimləmək və s. üsulların təkcə milli alətlərdə deyil başqa millətlərin alətlərinin ifasında da müşahidə edirik.

**"Türkçülük konseptsferasının təzahür aspektləri"** adlı III fəsildə arxaik qatların təsiri aspektindən türkçülük ideyalarının musiqi təcəssümünün əks edilməsi məsələlərinə diqqət ayrılır. **3.1. "Türkçülük C.Quliyevin intonasiya dilinin əsas xüsusiyyəti qismində"** təhlil edilməklə həmçinin musiqimizin arxaik qatlarına işıq sala bilər. Bu, elə bir intonasiya qatıdır ki, orda osmanlı türkünü qırğızdan, qazaxı uyqurdan ayırmaq artıq mümkünsüz görünür. Müsahibələrində C.Quliyev həmişə təfəkkür tərzinə, dünyaya baxışına və genetik koduna görə türk olduğunu vurğulayır. O, əmindir ki, vahid türk musiqisinin dünyaya səpələnmiş qırıntıları türk xalqlarının mədəniyyətində hələ də öz həyatını yaşamaqdadır. Bəstəkarın çalışmalarında "Bura Vətəndir!", "Bir yarpaq da Vətəndir" kimi incə, hətta intim etiraflardan, təzəcə ayaq tutmuş körpəni addımlamağa məcbur edən "Əsgər marşı"ndan[104] tutmuş türk dünyasının möhtəşəm mədəni abidələri "Oğuznamə" və "Dədə Qorqud"a qədər davam edəcək türkçülüyün böyük bir spektrini

[104] Manafova, G.R. Cavanşir Quliyevin "Əsgər marşı" türk əsgəri musiqisi ənənələrinin davamı qismində // Konservatoriya, – Bakı: – 2022-2, – s. 41-61.

izləmək mümkündür [105]. Türkçülük konseptinin yaradılmasında C.Quliyev muğam, aşıq musiqisi, folklor və s. şəklində xalq yaddaşının şəbəkəsində oturuşmuş bütün obraz və üsulların məcmusunu istifadə edir.

Mümkün dünyalar nəzəriyyəsinə [106] görə insan şüurunun fəaliyyəti nəticəsində yaranmış irreal dünyalar həyatın özü qədər realdır. Yəni, C.Quliyevin yaratdığı obrazlar qalereyası, o cümlədən Dədə Qorqud, Oğuz, Erlik, Humay ilahəsi və s. bir zaman yaşamış real insanlar qədər əhəmiyyətlidir və bəyənilib dinlənilsə etalon obrazlar səviyyəsinə qədər yüksələrək xalq yaddaşının bir parçasına çevrilə bilər. İnsan doğuluşundan artıq kimliyi barədə informasiya ilə birlikdə doğulur. Buna görə özünü türk kimi duyan bir sənətkarın əsərlərində peyda olan türk simvolikasının, həndəsi fiqurlar, enerji formalarının qrafik təsvirləri, təbiətin əsasında duran, məsələn, qızıl mərkəz qanununun, fizika qanunlarının işlək modellərinin, fiqurların [107] yaranması səbəbini kənarda aramaq gərək deyil. Ümumxalq səviyyəyə qədər yüksəlmiş xalq yaddaşı, kollektiv yaddaş (*collected memory*) şəxsiyyət və cəmiyyəti formalaşdıran əsas faktordur. Cəmiyyətdə milli özünüdərk prosesi zamanında xalqın ideyalarını əsərində səsləndirmiş sənətkar liderə, passionarlığın [108] təmsilçisinə çevrilir. Bu zaman sənətkarın xalq yaddaşı bankına – noosferaya [109] giriş-çıxışı alqışlanan və dəstəklənən prosesdir. XX əsrin 70-ci illərindən başlayaraq türkçülük ideyalarının sanki eyni

---

[105] Manafova, G.R. Türkçülük rəmzləri Cavanşir Quliyevin təfsirində // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XV Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: ADMİU-nun mətbəəsi, – 2016. – s.143-147

[106] Mümkün dünyalar nəzəriyyəsi (Теория возможных миров) modal realizmin banisi sayılan Devid Lyuis (David Kellogg Lewis; 1941—2001) tərəfindən təklif edilib.

[107] Uteqaliyeva S.İ. türk musiqisində aşkar etdiyi spiralvarı və konusvari s. həndəsi fiqurlar barədə daha geniş [Утегалиева, С.И. Звуковой мир музыки тюркских народов (на материале инструментальных традиций Центральной Азии). Диссертация на соискание ученой степени доктора искусствоведения. – Москва: – 2016. – с. 300–312].

[108] Гумилёв, Л.Н. Этногенез и биосфера Земли. – СПб.: Кристалл, – 2001. – 640 с.

[109] Вернадский, В. И. Биосфера и ноосфера. – Москва: Наука, – 1989. – 261 с.; Каримов, А.В., Пчелникова, Т.И. Вернадский, В.И. О Ноосфере как факторе эволюции свободы. // Вестник ТГУ. – 2013. - Т. 18, вып. 3. – с. 1059–1061.

zamanda hər yerdə çırtlayıb ortalığa çıxdığı dövrdə meydana gələn C.Quliyevin yaradıcılığı da əsrin simasını formalaşdıran proseslərin axarında baş verirdi.

Türk xalqlarının bu qədər geniş yayılma arealı XXI əsr musiqisində prototürk intonasiyasının izlərini axtarmaq cəhdini demək olar, mümkünsüz edir. Qazax əsilli musiqişünas Ayazbekova öz araşdırmalarında cəsarətlə işlətdiyi “Türk sivilizasiyası” [110] həqiqətən də çox böyük olsa da ortaq türk dili bu entoməkanı birləşdirməyə qadirdir. Türk dilinin şeir və nitqin ritmik formullarının sadə qalması, melodeklomasiya üsulu, ritmikanın formul şəklində təkrar edilməsi xüsusi ritmika doğurur və həm folklorda, həm də professional sənətdə açıq-aydın izlənildiyindən bizə türk dilinin musiqiyə təsirindən danışmağa müəyyən əsas verir. Müxtəlif türkdilli xalqlarda türkçülük rəmzi olan axsaq (bəzən bolqar ritmləri adlanan) ritm[111] C.Quliyevin ritmikasında önəmli yerlərdən birini tutan konfiqurasiyadır və müxtəlif şəkildəyişmələrlə müşahidə edilir.

Ritmik cəhətdən fərdi xüsusiyyətlərə malik olan rəqslərin sırasında “Kızılırmak” baletindən Təkə zortlatması rəqsi xüsusilə fərqlənir. Türkiyə ərazisində geniş şəkildə oynanılan türk xalq rəqs-oyunu baletin dramaturji cəhətdən vacib anında peyda olaraq 9 onaltılıq hesabında olması, cəld tempi, xanələrin 4+5 prinsipi ilə qruplaşması isə xalq rəqsinin əzəli xasiyyətinin reallaşmasını təmin edir. Təkə zortlatmasına daha bir nümunəyə biz “Anzak Koyu” oratoriyasında rast gəlirik.

C.Quliyev öz bədii məqsədinə nail olmaq üçün xüsusi vurğulama qaydası, zərb alətlərinin tembr imkanını önə çəkmək, sadə ritmik formullardan qalaqlanma yolu ilə mürəkkəb formul əldə etməyi tətbiq etsə də spesifik səhnələr üçün öz ritmini bəstələyir. Hər hansı eyş-işrət, sevgi, nifrət, ehtiras səhnələrində xalq ritmikasına

[110] Аязбекова, С. Ш., Аязбек С. А. Тюркская цивилизация: Теоретический и исторический аспект // Тюркский альманах, – Астана: – 2014. – с.172-195.

[111] Халык-заде, Ф.Х. Изучение хромых размеров аксак и перспективы музыкальной тюркологии. // Материалы Международного конгресса деятелей культуры и искусства «Тюркская культура: общие истоки и особенности развития», посвященного 125-летию Темирбека Жургенова. 30–31 мая 2023 года. – с.243-245.

rast gələ bilmərik. Təqdimatında sadə olan ritmikanın inkişaf sayəsində mürəkkəbləşərək dəyişkən metr, polimetrika, ritmik variasiya yoluyla lazımi vüsəti alması C.Quliyevin ritmik inkişaf üsullarını avanqard bəstəkarların çalışmalarına yaxın edir.

**3.2. "Üç səviyyəli qədim türk dünya modelinin musiqidə əksi"** adlı paraqrafda Türk dünya modelinin əsas elementlərini (zaman, məkan, əşyalar, insan və cəmiyyət, işarə və ritual) yenidən öz bildiyi kimi quraşdıran müasir bəstəkarın hətta avanqard musiqi mühitində də qədim dünyagörüşünü həyata gətirməsi prosesi izlənilir. Üçpilləli türk dünya modelini tədqiqata cəlb edərkən bəstəkar musiqisinin etnomusiqişünaslıqda olduğu kimi 3 mərhələli (səs yüksəkliyi, məqam-funksional, intonasiya) tədqiqi E.Alekseyev fundamental araşdırmasında [112] aşkar edilmiş embrional formalar (registrcə təzadlı α-melodika, ton akustik-fizioloji zonanın sərhədlərini pozaraq yüksəkliyini tədricən itirən səs β melodika, pilləvari hərəkətli γ melodika) müasir dövr bəstəkarı üçün "səs kərpiclərinə" çevrilir [113]. Əlbəttə ki, filmdə kadr kimi bir-birinə bənzər və sürətlə növbələşən bu "kərpiclərin" istifadə ardıcıllığında bəstəkar tam azaddır.

Məsələyə üç pilləli dünya modeli prizmasından baxanda C.Quliyevin musiqi dilində aşkar edilmiş üçpilləli dünya modelinin özünəməxsus xüsusiyyətləri aydın görünür:

- Üst qat ali duyğular, ali məxluqlar üçündür və ali dünyalara müraciət yüksələn intervalika, registr modulyasiyası şəklində icra edilir.

- Orta qat İnsan yaşamını işarələyən simvolların - əksər hallarda sekunda və kvarta intervallarının və xalq ritmikasının, milli məqam sisteminin kadansları ilə dəqiqləşdirilir.

- Aşağı qat insana nalayiq duyğuların, ölümün, cansız məxluqların simvolu olduğundan intonasiyadan məhrum edilərək yalnız ritmik xasiyyətnaməyə layiq bilinir.

---

[112] Алексеев, Э.Е. Раннефольклорное интонирование. Звуковысотный аспект. – Москва: Советский композитор, – 1986. – 240 с.

[113] Manafova, G.R. Etnomusiqişünaslıq tehlil üsullarının bestekar yaradıcılığına tetbiqine dair // Rast Müzikoloji Dergisi, – 2019, – 7(1), – s.1993-2008.

İntonasiya[114] təhlilində bəzi ümumiləşdirmələr edərək təsnifat aparmışıq[115]:

1. Paralel kvarta və kvintalar paralel dünyaların rəmzi kimi

2. Enən və yüksələn sekundalar: olum yoxsa ölüm dilemması

3. Daha böyük intervallara qlissando və səs təpəcikləri şəklində qalxma və enmə – göylə yer arasında

Müqəddəs simvolların, totemlərin canlandırılması, qədim obrazların, tarixi qəhrəmanların fərdiləşdirilməsi və özünəməxsus intonasiya ilə təchiz edilməsi işi teatr və kino musiqisindən təkan alır. C.Quliyevin illər uzunu "Yuğ" teatrı ilə əməkdaşlığı, Vaqif İbrahimoğlu ilə birlikdə obrazlar üzərində intonasion iş aparması, bu iki sənətkarın işbirliyi sayəsində nitq və musiqi intonasiyasının qarşılıqlı təsirindən doğan "eşidilən tarix" "Oğuznamə" baletinin intonasiya dilində xüsusilə sezilir[116]. Türk simvolizmində olduğu kimi sadə strukturlardan istifadə edərək mürəkkəb modellər yaratmaq bacarığı isə bəstəkarın bəlkə də ən özəl keyfiyyətlərindən biridir.

C.Quliyev: "*Mənim üçün kvarta və böyük sekunda intervallarından yaranan musiqi toxuması – həm üfüqü, həm şaquli anlamda – əski türk musiqi simvollarından biridir"*[117]. Həmin bu türk simvolikası **3.3. "C.Quliyevin musiqidə müəllif imzası"**nda öz əksini tapıb[118]. İlk dəfə müəllif imzası ilə artıq kamil, cilalanmış şəkildə zurna və orkestr üçün Uvertürada rastlaşmağımızın özü də əlamətdardır. Sanki birdən birə peyda olmuş və əvvəlki əsərlərlə nəzərəçarpacaq qədər fərqli olan, axsaq ritmikalı mövzu sonrakı dövr

---

[114] Асафьев, Б.В. Музыкальная форма как процесс: Книга вторая. Интонация / Асафьев Б.В. Избранные труды. Т. V. – М.: Академия наук СССР, – 1971. – с.163-276.

[115] Manafova, G.R. C.Quliyevin "Oğuznamə" baletində intonasiya dramaturgiyası // Konservatoriya, – 2018-2(40), – s. 70-90

[116] Manafova, G.R. Əski türk dastanlarının yeni balet təcəssümü: "Oğuznamə" baleti. // İSME-2018 33rd World Conference of the International Society for Music Education, Turkic Session, – Baku: – 15-20 July, – 2018. – s.286-293

[117] Tədqiqatda istinadsız rast gəlinən sitatlar bəstəkarla fərdi söhbətlərə və elektron yazışmalara əsaslanır.

[118] Manafova, G.R. Cavanşir Quliyevin musiqidə müəllif monoqramı // "Mədəniyyət dünyası" jurnalı, – Bakı: – 2023 №2, – s.71-81. DOI: 10.52094/1524122.44.2023.10

əsərlərində müxtəlif şəkildəyişmələrdə və bir qədər fərqli təfsirdə özünü büruzə verir.

**Nümunə 3.3.1** Zurna və simfonik orkestr üçün Uvertüra (1979)



**Nümunə 3.3.2** "Müşfiq ağıları" oratoriyası (2020)




II Kvartetdə, III simfoniyanın başlanğıc mövzusunda, "Dönübdü" xorunda tenorun partiyasında, ağac nəfəs alətləri üçün kvartetin III hissəsində, "Oğuznamə" baletindən döyüş səhnəsində nümunə qismində nəzərdə keçirdiyimiz mövzularda monoqram bəzən kvarta+sekunda düzümü yaratdığından sazın Divani kökünü[119] xatırladır. Müəllif imzasının əsərlərdə peyda olma ardıcıllığını izləməyə çalışsaq qeyd etməliyik ki, "Oğuznamə" baletindən sonra imza daha az peyda olmağa başladı. Bunu C.Quliyevin yaşam mühitini dəyişməsi, yaxud son illərdə yaratdığı mövzu qalereyasının xüsusiyyətləri ilə də əlaqələndirmək olar. "Kızılırmak" baletində yalnız baletin başlanğıcında "Çəmənlik" səhnəsində döyüşkən ruhundan məhrum olmuş müəllif imzasının deformasiya edilmiş versiyası sanki bir Vətən xatırlatması kimi görünür. "Müşfiq ağıları" oratoriyasında özü də Vətən ağısı bölümündə peyda olan müəllif imzası, interval tərkibi, sıçrayışın istiqaməti və s. deformasiya üsullarına məruz qalmaqla həmçinin C.Quliyevin şəxsi taleyi ilə əlaqədardır. Musiqi tarixində əksər hallarda öz ad və soyadını əbədiləşdirmək istəyilə (Məsələn, Bax, Şuman, Şostakoviç, Bartok, Şönberq və b.) yaranan musiqi anaqramlarından fərqli olaraq xalqın sevimli Divani kökünə uyğun sekunda-kvarta gedişli, axsaq ritmli formulu özünə müəllif imzası götürmüş C.Quliyevin niyyətində milliliyin miqyasını aydın görmək olur.

**NƏTİCƏ:** Yeni yazı texnikasının əmələ gəlmə səbəbləri, – analoji proseslər həm dünya, həm də Azərbaycan musiqisində müşahidə edilir – ilk öncə yeni estetikanın yaranması ilə bağlı idi. Bu tip azadlıq, musiqi materialını istədiyi vaxt istədiyi prinsiplə təşkil edə bilmək əvvəlki dövr musiqisində heç bir bəstəkara nəsib olmamışdı.

119 Saz məktəbi. URL:http://saz.musigi-dunya.az/6.html

Bütün dünyaya musiqidə qayda-qanundan xilas yollarını göstərə bilmiş Qərb bəstəkarları bu pillələri tədricən keçsələr də sovet bəstəkarlıq məktəbinin cığırları ilə irəliləyən milli bəstəkarlar, eləcə də C.Quliyevə bütün üsulları toplum halında almaq nəsib olmuşdu. Ona görə də artıq mövcud üsullar, vasitələr, üslublar, sistemlər, notasiya yolları və yeni düşüncə tərzi, fəlsəfəsi bolluğu içərisində bəstəkarın etdiyi seçimə nəzərən fikir yürütmək niyyətindəyik.

Əminliklə yeni dövr bəstəkarlarına aid etdiyimiz C.Quliyevin tətbiq etdiyi üsulları müasir musiqi lövhəsində axtarası olsaq bəstəkarın yalnız bəzi seçmə məqamlara, əksərən modus əsaslı 12 tonlu sıra, bir qədər sonorika və gen-bol aleatorikaya əl atdığını görərik. C.Quliyevin yaradıcılığında müşahidə etdiyimiz instrumental teatr hadisələri müasir musiqinin "*Action music*" hadisəsinə bir qədər bənzəsə də sözün əsil mənasında səs fenomeni adlana biləcək heppininqlər, multimediya aktları, hadisə-musiqi fenomenindən bir qədər uzaqdır. Çünki burada ənənəvi partitura və not yazısı var və əsərin səslənməsi, təfsiri müəllif üçün onun partiturasından vacib deyil. Əslində, şifahi ənənəli Azərbaycan folklor musiqisinin improvizəliyi, muğam azadlığı ilə C.Quliyevin məhdudlaşdırılmış aleatorikası arasında prinsipial fərqlər yoxdur. Bu, sadəcə müasir zamanın bəstəkara verdiyi azadlıq və hər kəsə əlyetən olan yaradıcılıq imkanı idi.

Müasir musiqinin, xüsusilə də minimalizmin yarandığı dövrdə avanqardın bu qədər ehtiyat etdiyi sadəlik, diatonik fon, üçsəslik əsası və hüdudsuz təkrarların geri qayıtması əslində bir illüziya idi. Çünki dünya həmişəki kimi olmayacaqdı, nə klassik forma, nə tonika üçsəsliyi, nə də musiqi cümləsi geri qayıdacaqdı. Hətta milli Azərbaycan məqamları çərçivəsində düşünən[120] C.Quliyev üçün də "yeni sadəlik" tamam fərqli estetikaya söykəndiyi üçün nə Orta əsr muğamının, nə də arxaik folklorun bərpası deyildi[121]. C.Quliyev

---

[120] Manafova G.R. "Mi" mayəli yeddi məqam // Konservatoriya, – Bakı: – 2016 2 (32) – s. 76-86.

[121]Манафова, Г.Р. Мугамное мышление как проявление устойчивых когнитивных моделей. На примере произведений Джаваншира Кулиева // Сборник материалов Международной научно-практической конференции "Музыкальное искусство XXI века: проблемы и решения" 5 ноября 2018 года – Ташкент: – с. 60-63. ISBN 978-9943-5301-2-6

minimalizm estetikasını, yəni, sadə struktur elementlərindən əsər ucaltmaq, artıqlardan, şərtiliklərdən qurtulmaq, ayaq saxlamış Zaman çərçivəsində mövcud olmaqdan qorxmamaq, klassik musiqidən tutmuş xalq yaradıcılığına qədər bütün mövcud elementlərdən cəsarətlə, amma mütləq qənaətcilliklə istifadə edə bilmək kimi çox anlaşıqlı fəlsəfəsini tam qəbul edir. C.Quliyevin heç bir əsərində avanqardın bu qədər bəyəndiyi kollaj və montaj prinsipinin bircə əlamətini də tapa bilmərik. O, təsadüf musiqisinə əsaslanan kompozisiya quraşdırıb dinləyicisini şoka salmaqla məşhurlaşmağı heç ağlına da gətirmədi. Mobil notasiya və açıq formalar fəlsəfəsi, əsərin taleyini ifaçı, yaxud dirijora həvalə etmək prinsipini qəbul etmədi. C.Keycin "təsadüf musiqisi"nin estetikasına bir qədər skeptik yanaşaraq əbədi sənət meyarlarından əl çəkmək istəmədi. Kompüter texnologiyalarını kamil şəkildə bilsə də (bəstəkar uzun illər səs rejissoru kimi çalışıb və teatr, kino musiqisinin texniki tərəfini, səs redaktəsi işini özü görür) ətraf dünyanın səslərindən öz səslənmələrini yaradıb elektron musiqi cərəyanına da qoşulmadı. C.Quliyev Messianın, Şostakoviçin, Prokofyevin, Hindemitin öz ladı[122] var deyə təkəbbürə qatılıb öz məqamını da yaratmayaraq bütün müasir təcrübələrini milli məqam sistemi çərçivəsində icra elədi. Nəinki başqa bəstəkarın musiqisindən, hətta xalq yaradıcılığından sitat gətirməyi özünə layiq bilməyərək avanqardın bu qədər sevdiyi polistilistika prinsipinə laqeyd qaldı. Amma xalq musiqi janrlarının stilistikasını bir əsər çərçivəsində qarşılaşdıraraq xalq polistilistikasını yarada bildi. Müasir musiqi baxımından araşdırdığımız nümunələrə nəzərən o qənaətə gələ bilərik ki, C.Quliyevin musiqisində xalq yaradıcılığında olmayan heç bir element tapmaq mümkün deyil. Müasirliyin simvolu olan dodekafoniyanı milli məqamlar çərçivəsində həll edən, xalq çalğı alətlərinin tembri üzərində sonor konsepsiyasını quraşdıran, xalq musiqisinin azad aleatorikasından ilhamlanan, muğam və aşıq

[122] Холопов, Ю.Н. Симметричные лады в теоретических системах Яворского и Мессиана / Музыка и современность, – Москва: Музыка, – 1971. – с. 247-293.; Холопов, Ю.Н. Лады Шостаковича. Структура и систематика // Идеи Холопова в XXI веке. Сб. статей. – Москва: Музиздат, – 2008. – с. 290-307.; Когоутек, Ц. Техника композиции в музыке XX века. – Москва: Музыка, – 1976. – с.57-60.

minimalizmini reallaşdıran, qədim mərasim, arxaik folkloru, eləcə də prototürk intonasiyasını həyata gətirməyə çalışan, bir sözlə Şərq və Qərbi bir-birinə bu qədər yaxınlaşdıra bilən C.Quliyevin bədii niyyəti və hədəfi neofolklor cərəyanının parlaq nümayəndəsinin obrazını aydın cızır[123].

Sadəliyə, melodiyanın, tonun gözəlliyinə, tembrin təkrarsızlığına daha artıq qiymət vermək həmçinin C.Quliyevin insan kimi gəldiyi qənaətin təcəssümüdür: bütün müsbət şeylər xalqa məxsusdur, yerdə qalan mənfiliklər isə toplum adlana biləcək müasirliyin (cəmiyyətin) simvoludur. Bu fikrin təsdiqi olaraq "Müşfiq ağıları" oratoriyasının intonasiya özəklərinə diqqət vermək kifayətdir. Burada Müşfiq, onun anası, sevgilisi Dilbər, təbiət hadisələri melodiya və intonasiya ilə təmsil edilib, satqınları, əclafları, istedadsızları, qatilləri təmsil edən parçalar isə müasir yazı texnikası ilə tərtib edilərək klasterlər, qlissando sürüşmələri, üst-üstə qalaqlanmış sonor ləkələr və makrotondan ibarətdir. "*Folklor – elə mən özüməm*" deyən C.Quliyevin türkçülük, azadlıq və turançılıq ideyalarına dayaqlanan konseptsferası, fərdi dünya modeli sadə, xalq yaddaşını xüsusi qaydada ötürə bilən, amma son dərəcə müasir və beynəlmiləl dildə səslənən simvollardan quraşdırılıb.

**Dissertasiyanın məzmununa dair müəllifin çap olunduğu elmi məqalələrinin siyahısı:**


1. Manafova, G.R. "Bayatı" multikulturalizmin rəmzi kimi // "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" beynəlxalq elmi konfransın materialları. – Bakı: 3-5 may 2016-cı il. II hissə. – s.159-162
2. Manafova, G.R. Türkçülük rəmzləri Cavanşir Quliyevin təfsirində // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XV Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: ADMİU-nun mətbəəsi, – 2016. – s.143-147
3. Manafova G.R. "Mi" mayəli yeddi məqam // Konservatoriya, – Bakı: – 2016 2 (32) – s. 76-86.


[123] Manafova, G.R. "Bayatı" multikulturalizmin rəmzi kimi / "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" beynəlxalq elmi konfransın materialları. – Bakı: 3-5 may, – 2016-cı il. II hissə. – s.159-162

4. Manafova, G.R. Aşıq musiqisi bəstəkar yaradıcılığında // Konservatoriya, – Bakı: – 2017, 1(35), – s. 83-95
5. Манафова, Г.Р. Следы ашыгской музыки в сонате для скрипки и саза Джаваншира Кулиева / Традиционная культура тюркских народов в изменяющемся мире: материалы I Международной научной конференции (12-15 апреля 2017 г.). – Казань: Изд-во Ак Буре, – 2017. – с. 301-304.
6. Манафова, Г.Р. Музыкально-формообразующие возможности народного стихосложения на примере произведений Джаваншира Кулиева // Искусство как феномен культуры: традиции и перспективы. Материалы Международной научной конференции Академии им. Маймонида (12-15 апреля 2017 г.). – Москва: – с.173-181.
7. Manafova, G.R. Şeir vəznləri və formalarının bəstəkar yaradıcılığında tətbiqinə dair // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: ADMİU-nun mətbəəsi, – 2017. s. 152-159.
8. Manafova, G.R. C.Quliyevin "Dönübdü" *a cappella* xorunda musiqi dilinin özəllikləri // Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransının materialları, II cild 24-25 oktyabr 2017-ci il. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – 2018, – s. 257-260
9. Manafova, G.R. Azərbaycan məqam sistemində yazılmış 12 xromatik tonlu musiqiyə ilk nümunə // Qloballaşan dünyada musiqi ənənələri I Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: Ecoprint, 26-27 oktyabr, – 2017, – s. 341-347.
10. Manafova, G.R. Cavanşir Quliyevin dəst-xəttində muğam rəmzləri // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XVII Beynəlxalq elmi-praktiki konfransın materialları. 12-13 may 2018-ci il, – Bakı: ADMİU-nun mətbəəsi, – s. 96-102
11. Manafova, G.R. C.Quliyevin "Oğuznamə" baletində intonasiya dramaturgiyası // Konservatoriya, – Bakı: – 2018-2(40), – s. 70-90

12. Manafova, G.R. Əski türk dastanlarının yeni balet təcəssümü: "Oğuznamə" baleti // İSME-2018 33rd World Conference of the International Society for Music Education, Turkic Session, – Baku: 15-20 July, – 2018, – s.286-293.
13. Манафова, Г.Р. Мугамное мышление как проявление устойчивых когнитивных моделей. На примере произведений Джаваншира Кулиева // Сборник материалов Международной научно-практической конференции Музыкальное искусство XXI века: проблемы и решения. 5 ноября 2018 года – Ташкент: – с. 60-63. ISBN 978-9943-5301-2-6
14. Манафова, Г.Р. Композиторское творчество как дополнительный материал при изучении этнографических особенностей национальной музыки. (На примере произведений азербайджанского композитора Джаваншира Кулиева) // Сборник материалов Международной научно-практической конференции к 150-летию Александра Затаевича. Личность, традиция, культура в музыкальной этнографии. 6-7 июня 2019, – Алматы: – с.309-319. ISBN 987-601-7848-33-0
15. Manafova, G.R. Etnomusiqişünaslıq tehlil üsullarının bestekar yaradıcılığına tetbiqine dair // Rast Müzikoloji Dergisi, – 2019, 7(1), – s.1993-2008.
16. Manafova, G.R. Saz (bağlama) ve keman için ilk sonata // 4. Uluslararası Mersin Sempozyumu 22–24 Ekim 2020, Mersin /Türkiye. Bildiri Tam Metinleri Kitabı-Kitap 7. – s. 281-297.
17. Manafova, G.R. Arxaik folklorun bəstəkar yaradıcılığında təzahür aspektləri: Cavanşir Quliyevin əsərləri nümunəsində // Konservatoriya, – Bakı: – 2020, 4. – s.17-40.
18. Manafova, G.R. Cavanşir Quliyevin "Əsgər marşı" türk əsgəri musiqisi ənənələrinin davamı qismində // Konservatoriya, – Bakı: – 2022-2, – s. 41-61.
19. Manafova, G.R. Folklor modellərinin bəstəkar yaradıcılığında ideal prototip qismində tətbiqinə dair (Cavanşir Quliyevin əsərlərinin nümunəsində) // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XXI Beynəlxalq elmi –

praktiki konfransın materialları. – Bakı: ADMİU-nun mətbəəsi, – 2022, – s.149-166.
20. Manafova, G.R. "Yeni dünya modeli" – minimalizm prinsipləri Cavanşir Quliyevin əsərlərində // Musiqi dünyası, – Bakı: – 2022 3/92, – s.67-70.
21. Manafova, G.R. C.Quliyevin yaradıcılığında xalq rəqs janrlarının təkamül prosesi // "Qloballaşan dünyada musiqi ənənələri" II Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: 14-16 noyabr 2022. – s. 289-297.
22. Manafova, G.R. Cavanşir Quliyevin musiqidə müəllif monoqramı // Mədəniyyət dünyası, – Bakı, – 2023 №2, – s.71-81. DOI: 10.52094/1524122.44.2023.10



Dissertasiyanın müdafiəsi 28 fevral 2025-ci il tarixində saat 13.00 Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Azərbaycan Respublikası, Bakı şəhəri, Ş.Bədəlbəyli küç. 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.01.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 45882 işarə

Tiraj: 100